www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 oktyabr 2025-ci il Cümə axşamı № 182 (8792) Qiyməti 60 qəpik

**Xəbər**

## İlin sonunda əfv olacaq?

yazısı səh.3-də

**Gündəm**

### Prezidentin "Türk NATO-su" təklifi - bədxahlara mesaj



Birgə hərbi təlimlər təşəbbüsü yeni hədəflərin anonsudur

yazısı səh.5-də

### Ermənistandan Gəncəyə atılan raketin bədəli - təzminat tələbi

yazısı səh.6-da

### Bakı iləMoskva arasında "buzlar" əriyir? - dekabra qədər...

yazısı səh.9-da

### Azərbaycan dron istehsalına başladı, Ermənistanda təşviş

yazısı səh.7-də

### "Bibi" terror simvollarını azad etməyəcək, bəs Bakı...

yazısı səh.4-də

### Qızılın qiyməti rekord həddə - Azərbaycana təsiri

yazısı səh.13-də

### Millimiz 30 il sonra Parisdə: "Oser faciəsi" təkrarlansa...

yazısı səh.14-də

### Qürur, səbir və zəfərin simvolu - Ağdamda da həyat yenidən doğulur

yazısı səh.11-də

### "Komfortlu türmələr" cəzaları mənasız edir? - çıxış yolu

yazısı səh.14-də

### Yanan tütün, qızdırılan tütün - "dadı" da eyni deyil, zərəri də

yazısı səh.15-də

# ZƏNGƏZUR DƏHLİZİNƏ İLGİNC HƏDƏ - TRAMPIN İMZASINI "SABOTAJ" EDƏNLƏR...

Xocalı canisini Moskvamı danışdırır? Üç liderin Ağ Evdə təsdiqlədiyi sənədlərlə bağlı axmaq iddiaya Bakıdan sərt təpki




yazısı səh.8-də

# "Kontakt Home" və "Baku Elektroniks"i boykot çağırışı

Hər iki şirkətdən şikayətlər artıb; hüquqşünas: "Bu sahədə bazar onların əlindədir, boykot edilsə, onda..."

yazısı səh.13-də



*Çingiz Qənizadə:*

### "Okamponun əməlləri yenidən araşdırılmalıdır"

yazısı səh.4-də



Eldar Quliyev

*Əli Orucov:*

### "Eldar Quliyevin sədrliyi Ağsaqqallar Şurasını hörmətdən saldı"

yazısı səh.3-də



Ararat Mirzoyan

### Bakı İrəvana əlavə şərt qoyub? - Mirzoyandan ziddiyyətli mövqe

yazısı səh.12-də

# Bu proqramlara girməyin, erməni mənşəlidir! Şok siyahı


Fərid Pərdəşünas

**Azərbaycanda bir neçə Ermənistan mənşəli proqram təminatından aktiv şəkildə istifadə olunur. İstifadəçilər çox vaxt özləri də bilmirlər ki, həmin tətbiqlər ermənilərə məxsusdur. Proqramlar yaxşı imkanlar təqdim edə bilər. Amma özlüyündə bizim vətəndaşların məlumatları üçün ciddi təhlükə yaradır.**

Axar.az xəbər verir ki, bu sözləri texnobloger, İT mütəxəssisi Fərid Pərdəşünas qeyd edib.

"Məsələn, foto-redaktə tətbiqi olan "Piksart" cihazın qalereyasına və fayllarına giriş icazəsi verir. Təsəvvür edin, şirkət hər nə qədər "tərəfsizlik" və "peşəkarlıq" nümayiş etdirsə də, adi bir qərəzli mühəndis belə bu məlumatlara müdaxilə edə bilər. Yəni burada insan faktoru çox önəmlidir.

Bu səbəbdən sizə aşağıda qeyd etdiyim tətbiqlərdən uzaq durmağı və onların qarşısında göstərilən alternativlərdən istifadə etməyi tövsiyə edirəm:

"Piksart" - mənşə: Ermənistan. Alternativ - "Canva", "Adobe Express", "CapCut";

"Renderforest" - mənşə: Ermənistan. Alternativ - "Envato Placeit" və "FlexClip";

"SoloLearn" - mənşə: Ermənistan. Alternativ - "Codecademy" və "freeCodeCamp".

"Krisp" - mənşə: Ermənistan. Alternativ - "NVIDIA Broadcast" və "Zoom/Google Meet" səs filtrasiyası;

"Zangi" messenceri - mənşə: Ermənistan. Alternativ - "Signal" və ya "Wire".

Məqsədim bu həlləri pisləmək deyil. Əsas məqsəd çox ciddi məsələ olan məlumat təhlükəsizliyidir. Bu tətbiqlərdən istifadə edənlər diqqətli olsunlar və daha etibarlı alternativlərə keçid etsinlər", - deyə Pərdəşünas qeyd edib.



## Əli Əsədovla Paşinyan görüşə bilər

**Azərbaycan və Ermənistanın baş nazirləri Əli Əsədov və Nikol Paşinyan Tiflis İpək Yolu Forumunun rəsmi açılış mərasimində və yüksək səviyyəli dialoqda iştirak edəcəklər. Modern.az xəbər verir ki, bu barədə Gürcüstanın İqtisadiyyat Nazirliyi məlumat yayıb.**

Tiflis İpək Yolu Forumu oktyabrın 22-23-də beşinci dəfə keçiriləcək və 2000-ə qədər nümayəndəni bir araya gətirəcək.

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, tədbirdə yüksək vəzifəli siyasətçilər, biznes sektorunun və beynəlxalq təşkilatların nümayəndələri, region ölkələrinin baş nazirləri və baş nazir müavinləri iştirak edəcək.

Forum çərçivəsində Sinqapurda yerləşən Qlobal Maliyyə və Texnologiya Şəbəkəsinin tərəfdaşlığı ilə ilk dəfə Tiflis Maliyyə Sammiti də keçiriləcək. Xatırladaq ki, Tiflis İpək Yolu Forumu ilk dəfə 2015-ci ildə keçirilib.

## Bakıda məşhur restoran cərimələndi

**Bakıda fəaliyyət göstərən "Dolunay" restoranı cərimələnib Modern.az-ın məlumatına görə, buna səbəb restoranın üzərində müvafiq icazə olmadan açıq məkanda reklam lövhəsi yerləşdirilib. Dövlət Reklam Agentliyi obyektin sahibi barəsində İnzibati Xətalar Məcəlləsinin 428.7.1-ci maddəsi ilə inzibati protokol tərtib edib. Məhkəmə müəyyən edib ki, obyektin sahibi reklam haqqında qanunun tələblərini pozaraq, reklam yerləşdirməzdən əvvəl müvafiq icazə almayıb.**

Məhkəmə qərarı ilə obyektin vəzifəli şəxsi 1.500 manat məbləğində inzibati cərimə olunub.

## Uşaqlara ən çox qoyulan adlar açıqlandı

**Cari ilin ilk 9 ayı ərzində Azərbaycanda uşaqlara ən çox qoyulan adlar açıqlanıb. Bu barədə Ədliyyə Nazirliyindən məlumat verilib. Bildirilib ki, oğlan uşaqlarına ən çox Uğur, Raul, Hüseyn, Əli, Yusif, Miran, Ömər, Ayxan, Tunar, Murad adları qoyulub. Qız uşaqlarına isə valideynlər Melisa, Zəhra, Zeynəb, Məryəm, Aylin, Nilay, Ayla, İnci, Alisa, Fatimə adlarını qoymağa üstünlük veriblər.**

## Bakıda avtoxuliqan həbs edildi

**Bakıda avtoxuliqanlıq edən sürücü həbs edilib.**

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsindən APA-ya verilən məlumata görə, DYP əməkdaşları tərəfindən yol hərəkəti qaydalarını kobud şəkildə pozub avtoxuliqanlıq edərək digər hərəkət iştirakçılarının həyat və sağlamlığına real təhlükə yaradan "BYD" markalı 77-SH-182 dövlət qeydiyyat nişanlı nəqliyyat vasitəsinin sürücüsü Vəzirov İbrahim saxlanılıb.

Sürücü barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə əsasən protokol tərtib edilərək baxılması üçün aidiyyəti məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə sürücü İ.Vəzirovun idarəetmə hüququ 1 il müddətinə məhdudlaşdırılıb və o, 1 ay müddətinə inzibati qaydada həbs edilib.

## Bu türk ölkəsində pedofillər axtalanacaq

**Qazaxıstan Səhiyyə Nazirliyi "Tibbi xarakterli məcburi tədbirlərin tətbiqi qaydalarının təsdiq edilməsi haqqında" əmrdə dəyişiklik edib.**

Axar.az xəbər verir ki, bu barədə "Sputnik Qazaxıstan" məlumat yayıb. Sənədə əsasən, yetkinlik yaşına çatmayanlara qarşı cinsi zorakılıq törətməkdə təqsirli bilinən şəxslərə azadlığa buraxılmazdan altı ay əvvəl kimyəvi kastrasiya (axtalama) tətbiq olunacaq.

## Xocalının bu kəndinə növbəti köç oldu

**Xocalının Xanyurdu kəndinə növbəti köç həyata keçirilib. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icti-maiyyətlə əlaqələr şöbəsindən Modern.az-a verilən xəbərə görə, ölkəmizin müxtəlif şəhər və rayonlarında müvəqqəti məskunlaşmış 69 nəfərdən ibarət 18 ailə bu gün Xanyurdu kəndinə qayıdıb.**

Rəsmilər, sakinləri doğma kəndlərinə dönüş münasibətilə təbrik edib, yeni tikilmiş fərdi yaşayış evlərinin açarlarını onlara təqdim ediblər.

Xanyurdu kəndində sakinlər üçün müasir standartlara uyğun fərdi evlər inşa olunub, elektrik, qaz, su təchizatı, rabitə və internet infrastrukturu tam şəkildə təmin edilib. Xatırladaq ki, bugünədək Xocalı rayonunun Xanyurdu kəndinə 69 ailədən ibarət 237 nəfər keçmiş məcburi köçkün köçürülüb.

## Bu gün hava yağmursuz keçəcək

**Oktyabrın 9-da gözlənilən hava proqnozu açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə zəif duman, az çiskinli olacağı ehtimalı var. Mülayim cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 17-19° isti, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 80-85%, gündüz 55-60% olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şərq rayonlarında az çiskinli olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 15-19° isti, gündüz 23-28° isti, dağlarda gecə 8-13° isti, gündüz 15-20° isti olacaq.

## "QHT işi" üzrə məhkəmə başladı

**"QHT işi" üzrə ittiham olunanlardan biri, vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə təqsirləndirilən İqtisadi Tədqiqatlar Mərkəzi İctimai Birliyinin Mərkəzi İdarə Heyətinin sədri, iqtisadçı Qalib Bayramovun cinayət işi üzrə məhkəmə başlayıb.**

APA xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən hazırlıq iclasında əhatə məlumatları dəqiqləşdirilib. Daha sonra təqsirləndirilən şəxsin vəkili Zibeydə Sadıqova məhkəməyə vəsatət verib. Vəkil məhkəmədən cinayət işinə bəraətverici əsaslarla xitam verilməsini istəyib.

Dövlət ittihamçısı vəsatətin hazırkı mərhələsində baxılmamış saxlanılmasını istəyib. Məhkəmə vəsatəti baxılmamış saxlayıb. Məhkəmə işin baxışa verilməsi ilə bağlı qərar qəbul edib.

Proses 22 oktyabrda davam etdiriləcək. Qeyd edək ki, ona qarşı Cinayət Məcəlləsinin 193-1.3.2-ci ( Cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma xeyli miqdarda törədildikdə ), 308-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham irəli sürülüb. Onun barəsində polis nəzarəti altına verilmə qətimkanı seçilib.

## Pensiyalar bu tarixdə ödəniləcək

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə pensiyaların ödənilməsi tarixi açıqlanıb.**

Pensiyalar Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə oktyabr ayının 10-da ödəniləcək. Daha sonra isə qrafikə uyğun olaraq respublikamızın digər bölgələri üzrə bu ayın pensiyaları, həmçinin güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin pensiyaları da ödəniləcək.

Qeyd edək ki, 2025-ci ilin iyulun 1-i vəziyyətinə əsasən, Azərbaycanda Dövlət Sosial Müdafiə Fondunda 1 milyon 103,3 min pensiyaçı qeydiyyatdadır. Bu da ölkə əhalisinin 10,8 faizini təşkil edir. Bu rəqəm ötən ilin eyni dövrünə nisbətən artıb.

## "Tiktoker" 10 sutkalıq həbs olundu

**Aparıcı Tarix Əliyevi (Tolik) təhqir edən tiktoker Zaur Qasımov inzibati qaydada həbs edilib. "Qafqazinfo"nun məlumatına görə, Nərimanov Rayon Məhkəməsi aparıcının şikayəti əsasında belə qərar çıxarıb.**

Protokolda yazılıb ki, Zaur Qasımov TikTok-da canlı yayım zamanı Toliki təhqir edib. Daha sonra hirsi soyumayan şəxs aparıcıya zəng edərək şəxsinə qarşı nalayiq sözlər işlədib.

Tarix Əliyev bu barədə polisə rəsmi qaydada müraciət edib. Şikayətçi olduğu şəxs polis əməkdaşları tərəfindən saxlanılıb.

Hakim Xalidə Əlisoyun qərarı ilə Zaur Qasımov xırda xuliqanlıqda təqsirli bilinərək inzibati qaydada 10 sutka müddətinə həbs edilib.

## Ağdaşda iki bacını maşın vuraraq öldürüb

**Ağdaşda yol qəzasında ölən şəxslərin bacı olduqları məlum olub. APA-nın cənub bürosunun verdiyi xəbərə görə, hadisə oktyabrın 7-də Ağdaş rayonunun Əmirarx kəndi ərazisində baş verib.**

Hərəkətdə olan "Mercedes" markalı minik avtomobili yolu keçmək istəyən - 1976-cı il təvəllüdlü Sədaqət Ramazanova və onun bacısı 1978-ci il təvəllüdlü Elnarə Soltanovanı vurub. Onlar aldıqları xəsarətlərdən hadisə yerində ölüblər. Onlar həkim qəbuluna gedirmişlər. Astara rayonunun Giləkəran kənd sakinləri olan bacılar doğulduqları kənddə dəfn olunublar.

YENİ MÜSAVAT
N 182 (8792) 9 oktyabr 2025

# İlin ikinci əfvinə doğru gedirik- "İndiki vaxtda əfv sərəncamı olduqca vacibdir"

**Bu ilin sonunda Azərbaycanda əfv sərəncamının veriləcəyi ilə bağlı xəbərlər yayılıb. Məlumata görə, növbəti əfv sərəncamı əvvəlkilərdən fərqli olacaq. Ölkə ölkə başçısının əfv sərəncamına həbsdəki ictimai-siyasi fəallardan, həmçinin jurnalistlərdən bir neçəsinin adının daxil ediləcəyi bildirilir. Hətta oktyabrın 7-dən etibarən cəzaçəkmə müəssisələrində bir neçə siyasi məhbusa əfv ərizəsi yazmaq barədə tövsiyə olunduğu da iddia olunur. Bu barədə Gununsesi.info məlumat yayıb.**

Sayt adlarının açıqlanmasını istəməyən bəzi məhbus ailələrinin məlumatı təsdiqlədiyini bildirir.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu** Musavat-com-a dedi ki, əfvə hər zaman ehtiyac var: "Hazırda həbsxanalarda çoxlu xəstə məhbuslar var. 1-2 il həbs cəzaları qalanları xüsusi qeyd edim ki, onları azad etmək olar. Siyasi motivlə həbsdə olanlar da var. Xüsusilə gənc jurnalist xanımlar var, bunların hamısını azadlığa buraxmaq lazımdır. Hazırda ölkəmiz qardaş Türkiyə istisna, hər tərəfdən düşmənlərlə əhatə olunub. Hamımızın bir yerdə olmasına böyük ehtiyac var. Dövlətimizi qorumaq hər birimizin borcudur. Qorumaq üçün də bir-birimizə doğru addım atmalıyıq. Bütün bunlardan çıxış edərək deyə bilərəm ki, indiki vaxtda əfv sərəncamı olduqca vacibdir".


Novella Cəfəroğlu

Qeyd edək ki, sonuncu əfv sərəncamı cari ilin mayında - 28 May Respublika Günü münasibətilə verilib.

**Cavanşir ABBASLI, "Yeni Musavat"**

# "Eldar Quliyevin sədrliyi Ağsaqqallar Şurasını hörmətdən saldı" - Əli Orucov



**Respublika Ağsaqqallar Şurasının sədri Eldar Quliyevin adının "QHT-lərin saxta medal paylaması" işində hallanması ictiamiyyətdə bu təsisata yeni rəhbərin seçilməsinin vacibliyi barədə fikirləri meydana gətirib.**

Musavat.com xəbər verir ki, bu barədə **Milli İstiqlal Partiyasının Mərkəzi Şurasının üzvü, siyasi ekspert Əli Orucov** bildirib.

Ə.Orucov qeyd edib ki, Fəttah Heydərov vəfat edəndən sonra Respublika Ağsaqqallar Şurasını ya buraxmaq, ya da sanballı, xalq arasında hörməti və nüfuzu olan şəxsi bu qurumun rəhbərliyinə gətirmək lazım idi: "Azərbaycan SSR Kommunist Partiyası MK-nın keçmiş birinci katibi İmam Mustafayev tərəfindən 1989-cu ildə təsis edilən Ağsaqqallar Şurasına sonralar akademik Budaq Budaqov və Milli Məclisin deputatı Fəttah Heydərov kimi simalar rəhbərlik edib. 25 il parlamentdə deputat işləyən Eldar Quliyevin bu qurumun sədrliyinə gətirilməsi Ağsaqqallar Şurasını hörmətdən saldı. Onun adı bir sıra qalmaqallarda hallandırıldı, şura fəaliyyət istiqamətlərindən sapındırıldı. Cari ilin 9 mayında İmişli rayon Ağsaqqallar Şurasının sədri Saleh Səmədovun ətrafı ilə SSRİ bayrağı fonunda sinəsində rus imperiyasının rəmzi olan "Georgi lenti" ilə meydana çıxması və buna haqq qazandırmasından sonra Eldar Quliyevin də istefaya göndərilməsi labüd idi. Saxta medalla bağlı həbslərdən sonra məlum olur ki, şuranın sədri həbs edilən Eldar İsmayılovla birlikdə Türkmənistan Prezidenti Berdiməhəmmədovun saxta "Dədə Qorqud" medalı ilə təltif edilməsində iştirak və çıxış edib. Mən hesab edirəm ki, Türkmənistan Prezidentinin tələyə düşürülməsində deputat və rəsmi şəxs kimi Eldar Quliyev müstəsna rol oynayıb. Prezident onun ciddiliyinə inanıb. İndi də yaxasını kənara çəkib, özünü təmizə çıxarmağa çalışır. O, hər dəfə şəxsi çıxarları naminə dövlətin imicini zərbə altına qoyub".

**AMİP rəsmisi deyib ki, Eldar Quliyev uzun illər Ticarət Nazirliyi və Azərbaycan Mərkəzi Kooperativlər İttifaqında ("Azərittifaq") məsul vəzifələrdə çalışıb, alış-verişin ustasıdır**: "Tərcumeyi-halına diqqət etsəniz, saysız-hesabsız mükafatların və təltiflərin bolluğundan da bunu aydın görmək mümkündür. Eldar Quliyev ticarət adamıdır, onu siyasətə və ictimai işlərə cəlb etməyi doğru saymıram".

# Litva qorumanı azaltdı, Tixanovskaya ofisini bağladı

**Belarus müxalifətinin lideri Svetlana Tixanovskayanın Vilnüsdəki ofisi fəaliyyətini müvəqqəti olaraq dayandırıb. Buna səbəb Litva hakimiyyətinin onun fiziki təhlükəsizlik səviyyəsini aşağı salması olub.**

Musavat.com xəbər verir ki, məlumatı siyasətçinin diplomatik müşaviri Denis Kuçinski LRT.lt-ə təsdiqləyib.

Kuçinskinin sözlərinə görə, onlara bu barədə 1 oktyabrda məlumat verilib: "Bizə Svetlana Tixanovskayanın təhlükəsizlik tədbirlərində dəyişiklik ediləcəyi bildirildi. Arzu edərdik ki, bu barədə bir qədər əvvəl xəbərdar edilək. Qısa müddətli xəbərdarlıq səbəbindən ofisin fəaliyyətini vaxtında uyğunlaşdıra bilmədik, buna görə də işimizi müvəqqəti dayandırmaq məcburiyyətində qaldıq."


Svetlana Tixanovskaya

Sonradan Litvanın xarici işlər naziri Kestutis Budrisle keçirilən görüşdə rəsmi şəxslər dəyişiklikləri izah ediblər və Tixanovskaya komandasına Litvanın Aleksandr Lukaşenko rejiminə münasibətinin dəyişmədiyini bildiriblər. Onlar həmçinin vurğulayıblar ki, "Tixanovskaya Litva hökumətinin rəsmi qonağı statusunu saxlayır və bu statusda heç bir dəyişiklik yoxdur."

Kuçinski qeyd edib ki, ofis hələ də Belarus rejiminin xaricdəki demokratik qüvvələrə və icmalara qarşı həyata keçirdiyi təzyiq və hədə-qorxu kampaniyaları fonunda təhlükələrin davam etməsindən ciddi narahatdır.

Məlumata görə, Tixanovskayanın mühafizəsinə görə məsuliyyət daha əvvəl yüksək vəzifəli şəxslərin təhlükəsizliyinə cavabdeh olan xidmətdən alınaraq, Cinayət Polisi Bürosuna həvalə olunub.

Svetlana Tixanovskaya 2020-ci ildə Belarusda keçirilən prezident seçkisindən sonra Litvaya mühacirət edib və o vaxtdan bəri 24 saatlıq mühafizə altında yaşayırdı. Litva parlamentinin xarici əlaqələr komitəsinin sədri Remigiyus Motuzas bildirib ki, təhlükəsizlik səviyyəsinin azaldılması qərarı mövcud risklərin yenidən qiymətləndirilməsi nəticəsində qəbul edilib.

**Musavat.com**


Serj Sərkisyan

# Azərbaycan düşmənindən acı etiraf - Bakıda o da çay içmək istəyirdi...

**Doğrudan da qələbənin şəriki çox olur, məğlubiyyət isə adətən yetimdir. İndi bu haqq yolunu çoxdan itirmiş, başına gələn bəlaların, çəkdiyi zillət-zəlalətin əsl səbəbini etiraf eləmək istəməyən nanəcib hay toplumu da.**

Amma bəzən o toplumda çaşıb sözün düzünü deyənlər də olur. Bütövlükdə isə erməni cəmiyyətinin məlum dramatik olaylardan sonra islah olduğunu söyləmək təəssüf ki, mümkünsüzdür. Demək ki, bədnam tayfa qonşular üçün potensial təhlükə mənbəyi olaraq qalır...

Hər necə olmasa, dəqiq sözü Ermənistanda yaxınlaşan parlament seçkiləri və referendum deyəcək: bu xalq başına gələnlərdən dərs götürübmü, hansı qüvvənin dalınca gedəcək, yenə müharibə üçün darıxır, yoxsa sülhə təşnədir?

Sözsüz ki, revanşist-qırğıların sözü əgər cəmiyyət üçün yenə mötəbər olacaqsa, onda vay halların. Növbəti müsibətə hazırlaşsınlar. Söhbət ən əvvəl marığa yatmış, Rusiyaya bağlı radikal qüvvələrdən və rüsvaycasına siyasi olimpdən salınmmış bir sıra odioz fiqurlardan gedir...

"Ermənistan hakimiyyəti ordunun gücünü özü şişirdib, indi isə məğlubiyyətin günahını ordunun üzərinə yıxmağa çalışır".

Bu yetərincə sensasion sayıla biləcək sözləri eks-prezident, Xocalı hərbi canisi Serj Sərkisyan yerli mediaya 44 günlük müharibənin təhqiqatını aparan parlament komissiyasının hesabatının arxivə verilməsi haqda qərara münasibət bildirərkən deyib.

Serjikə görə, məqsəd guya hakimiyyətin öz səhvlərini və yanlış hesablamalarını ört-basdır eləməkdir. Sərkisyanın qənaətincə, Paşinyan ordunun döyüş qabiliyyətini şişirtməklə onun qüdrəti barədə illüziya yaradıb.

"Nə mən, nə də müdafiə naziri heç vaxt Ermənistan ordusunun regionun ən güclü ordusu olduğunu iddia etməmişik. 2020-ci ilin yayında Tavuşda (Tovuzla sərhəddə - red.) baş verən kiçik toqquşmalardan sonra indiki rəhbərlik 70-dən çox hərbçini "Döyüş Xaç Ordeni" ilə təltif edib. Heç üç prezident birgə bu qədər mükafat təqdim etməmişdi. Bunlar müzakirə edilməli faktlardır", - Sərkisyan hazırkı baş nazirin qarasınca donquldanıb...

Yuxarıda yazdıq, məğlubiyyətə yiyə duran həmişə çətin tapılır. İndi Azərbaycan həbsxanalasının çoxdan darıxdığı, uşaq qatili Sərkisyan da. Görəsən, işğalçı ordu haqda uzun illər "məğlubedilməzlik" mifini kim yaratmışdı? Nikol Paşinyanmı?

Yox. Bu sərsəm uydurma məhz Köçəryan-Sərkisyan xunta rejiminin zamanına təsadüf edir. Eyni səbəbdən İrəvan Bakı ilə sülh danışıqlarında illərlə konstruktiv deyil, pozucu mövqe tutdu, göylə getdi. Hətta zaman-zaman Azərbaycanı yeni ərazilərin işğalı, "Bakıda çay içəcəkləri" ilə hədələdilər. Paşinyanı ittiham etməyə nə var ki.

Bişəkk, Nikol Paşinyan mələk deyil. O da onların bir tayı, medalın o biri "üzü". Hər halda biz 44 günlük müharibə zamanı Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi bombalamaq əmri verənin adını unutmamışıq. Bu - "Qarabağ Ermənistandır və nöqtə" deyən (2019), 23 saatlıq antiterror əməliyyatından cəmi 17 gün öncə Qarabağdakı oyuncaq uydurma quldur-separatçı rəhbərlərini qondarma "müstəqillik günü" münasibətilə təbrik edən Paşinyandır.

Amma və lakin 2-ci Qarabağ savaşında acınacaqlı məğlubiyyətə uğrayan axı yalnızca Nikolun yox, həm də Köçəryanın, Serjikin, Ter-Petrosyanın qurduğu və öyündüyü, Rusiyanın himayə elədiyi təcavüzkar ordu idi!..

Əslində hələ 4 günlük aprel döyüşlərində (2016) o vaxt prezident postu tutmuş Sərkisyan hiss eləmişdi ki, Ermənistan Azərbaycan qarşısında uzun müddət duruş gətirə bilməz və işğalçı ordu faktiki "kağız pələng"dən başqa bir şey deyil. Təəssüf ki, bunu etiraf eləməyə nə cəsarəti, nə də siyasi iradəsi çatdı. Çünki o və onun kimi yüz minlərlə erməni tamamən "miatsum" mərəzinə yoluxmuşdu. Bu mərəz onların qanına-iliyinə işləməklə bahəm, gözlərinə tor çəkmiş, gerçəyi görünməz eləmişdi.

Əksinə, həmin bu Serjik sırtıqcasına erməni tərəfinin aprel döyüşlərindən guya qalib çıxdığı haqda dünənədək uzun müddət öz soydaşlarına nağıllar danışdı. Bununla da 44 günlük müharibəni, "Dəmir yumruğu" bir qədər də qaçılmaza çevirdi. "Böyük haqq-hesab günü" yetişdi və erməni toplumunun gözündəki "toru", "çəhrayı eynəyi" şanlı Azərbaycan Ordusu götürməli oldu...

**Zahid SƏFƏROĞLU**

YENİ MÜSAVAT
N 182 (8792) 9 oktyabr 2025

# Bakının düşməni yenə xortladı

## Okampo Azərbaycandan əl çəkmir və bu dəfə Vardanyana görə yaxasını cırır - reaksiya

**"Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru Luis Moreno Okampo BMT-nin Özbaşına Həbslər üzrə İşçi Qrupunun 17 fevral 2025-ci il tarixli rəyinə dair ekspert mövqeyini dərc edib və bu, qrupun qərəzsizliyinə ciddi şübhə yaradan real maraqlar toqquşmasını aşkar edib. Qrup Ruben Vardanyanın Azərbaycan tərəfindən saxlanmasının özbaşına olmadığı qənaətinə gəlib. Ekspert rəyində Okampo maraqlar toqquşmasının mövcudluğunu əsaslandırır və vurğulayır ki, hazırkı sədr Anna Yudkivska Azərbaycanın dövlət neft şirkəti SOCAR-ı Ukraynada təmsil edən Equity Law Firm-in tərəfdaşıdır".**

"Yeni Müsavat" xəbər verir ki, bu barədə News.am yazıb. Erməni KİV qeyd edib ki, Okampo BMT-nin Özbaşına Həbslər üzrə İşçi Qrupunun hazırkı sədri-məruzəçisi, ukraynalı hüquqşünas Anna Yudkivskanın "qərəzsizliyi ilə bağlı açıq mənbəli araşdırma aparıb".

"O, Azərbaycana qarşı işçi qrupun qarşısında qaldırılmış bütün işlərdən imtina etməli idi. Onun uzun illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə (ARDNŞ) hüquqi xidmətlər göstərən firmada fəal tərəfdaş kimi peşəkar fəaliyyətindən irəli gələn maraqlar toqquşması var. Bu, onun və ekspertizasının tərəfi olmayan Azərbaycan hökuməti arasında birbaşa maliyyə əlaqəsi yaradır", - deyə erməni mediası sərsəm iddialar irəli sürüb.

Okampo xüsusilə 44 günlük müharibə zamanı və Qarabağda keçirilən antiterror əməliyyatları zamanı fəallıq edir, ermənilər üçün az qala yaxasını cırırdı. İndi də o, Vardanyan üçün özünə əl qatıb. Bu korrupsioner sabiq prokuror Azərbaycandan əl çəkmir və erməni lobbisinin pulları ilə xidmət göstərməyə davam edir.

Xatırladaq ki, bədnam keçmişi olan Luis Moreno Okampo korrupsiya, hətta cinsi təqibdə də ittiham olunub. İndi onun erməni kampaniyasının önündə getməsi də təsadüfi deyil. Vaxtilə Qarabağ separatçılarının lideri Araik Arutyunyan da məhz Okampodan Qarabağdakı vəziyyətə münasibət bildirməyi xahiş edib və bu, faktdır. Eks-prokuror tapşırığı yerinə yetirib və Qarabağda mövcud vəziyyət barədə qərəzli hesabat dərc edib. Keçmiş prokurorun Qarabağda "humanitar fəlakət" yaşanması ilə bağlı yersiz iddiası hətta Qərb mediası tərəfindən təkzib olunmuşdu. O, bir neçə il öncə ofşor maliyyə fəaliyyəti ilə bağlı suala cavabında bildirmişdi ki, Beynəlxalq Cinayət Məhkəməsindəki maaşı onun üçün kifayət etmir. Yeri gəlmişkən, bu dələduz işğaldan azad edilən Qarabağda "etnik təmizləmə"lərə yol verildiyini belə iddia edib.

Okamponun adı MDB məkanında qalmaqallı məhkəmələrdə də hallanıb. Məsələn, o, "Centros Commerciales Antei" şirkəti vasitəsilə çirkli pulların yuyulmasında ittiham olunan Vladislav Rezniki müdafiə edib.

Əslində isə Vardanyana görə hər hansı sövdələşməyə ehtiyac yoxdur, onun cinayətləri bir-bir məhkəmədə sübuta yetirilir.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** də bildirdi ki, Okampo nüfuzdan düşmüş və ermənilərin əlinə baxan sabiq prokurordur. Onun sözlərinə görə, erməni mediası indi "saman çöpüyü"ndən yapışıb və belə dələduzların çıxışlarının ümidinə qalıb.



**Ç.Qənizadə vurğuladı ki, qanun qarşısında cavab verən Vardanyanı ağır cəza gözləyir və əməllərinin bədəlini ödəməyi haqq edir:** "Məhkəmə prosesi açıq, şəffaf keçirilir. Vardanyan ifadə verməkdən imtina etsə də, onun üçün hər hansı üstünlük qazandırmır. Çünki faktlar, dəlillər ortadadır. İlk növbədə Azərbaycan sərhədini qanunsuz keçib. Bundan sonra Qarabağa icazəsiz yerləşib və orada xunta rejimini dəstəkləyib, hətta "dövlət naziri" kimi mifik vəzifə tutub. Ardınca separatizmi, qanunsuz silahlı birləşmələri maliyyələşdirib, Azərbaycan rəhbərliyinə və dövlətinə hədyanlar səsləndirib, əhalini meydana çağıraraq tabe olmamağa dəvət edib, bu azmış kimi, mülki erməniləri silahlanmağa və Azərbaycana qarşı döyüşməyə çağırıb. Bütün bu qanunsuz hərəkətlərin fonunda Okampo və başqalarının danışmağa hələ dili də var. Bu, həyasızlıqdır və belələrinin cavabı verilməlidir".

**Hüquq müdafiəçisi qeyd etdi ki, bir vaxtlar Menendez kimi korrusioner konqresmenlər də erməni separatizmini dəstəkləyirdi, sonra rüşvətə bulaşdığı üzə çıxdı, həbsə göndərildi:** "Okamponun da əməlləri yenidən araşdırılmalıdır və əminəm ki, onun cinayətləri qısa zamanda faş oluna bilər. Həm erməni lobbisindən aldığı pullar, həm prokuror olduğu dövrdəki fəaliyyəti təftiş edilə bilər. Əgər hüquq sahəsinə aid biri Vardanyanı müdafiə edirsə, deməli, ya vicdanını itirib, ya da maddi marağı var. Çünki onun kim olduğu göz qabağındadır. Bu adam Donbasda belə separatizmə dəstək verib. Rusiya vətəndaşı kimi Qarabağda qanunsuz şəkildə məskunlaşaraq göstərdiyi fəaliyyət də məhz onu himayə edənlərin tapşırığı idi, sadəcə, dövlətimiz bu xain planı ifşa etdi, qarşısını aldı".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# "Bibi" terror simvollarını azad etməyəcək, bəs Bakı...



**İsrailin baş naziri, "Bibi" ləqəbli Binyamin Netanyahu fələstinli siyasi xadim, FƏTH hərəkatının üzvü Mərvan Bərqutinin Qəzza zolağında vəziyyətin nizamlanması ilə bağlı razılaşma çərçivəsində azad edilməyəcəyini bəyan edib. Bu barədə "Kanal-12" mənbələrə istinadən bildirib.**

Məlumata görə, İsrail hökumətinin başçısı bunu milli təhlükəsizlik naziri İtamar Ben-Qvirlə görüşü zamanı deyib. Danışıqlar zamanı B.Netanyahu təsdiq edib ki, "Bərquti başda olmaqla terrorizmin simvolları" HƏMAS-la razılaşmanın icrasının heç bir mərhələsində yer almayacaq.

Mənbələr həmçinin bildirir ki, görüşdə Ben-Qvir baş nazirə sülh planının mümkün həyata keçirilməsinə hazırlıq məqsədilə bir sıra tələblər təqdim edib.

Mərvan Bərquti Fələstin müqavimətinin əsas simvollarından biri hesab edilir və 2002-ci ildən İsrail həbsxanasında saxlanılır. İsrail məhkəməsi onu ömürlük həbs cəzasına məhkum edib.

Yeri gəlmişkən, "PassBlue" nəşri BMT Baş Assambleyasının "yüksək səviyyəli həftəsi" çərçivəsində Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyanla eksklüziv müsahibə dərc edib. Müsahibədə Azərbaycanla sülh sazişi, münasibətlərin normallaşdırılması və humanitar məsələlər müzakirə olunub.

Erməni hərbi canilərinə gəlincə, Badalyan bildirib ki, bu məsələ ilk növbədə Azərbaycanla müzakirə olunur və daha geniş humanitar kontekstdə, o cümlədən itkin düşmüş şəxslərin məsələsi ilə birlikdə nəzərdən keçirilir.

Badalyan müsahibəsində hərbi canilərin azad edilməsi məsələsinə toxunarkən onu da bildirib ki, bu mövzular sülh sazişinin əsas hissəsini təşkil edir və ilk növbədə Azərbaycanla birbaşa dialoq çərçivəsində müzakirə olunur.

İsraildən fərqli olaraq, Ermənistanla sülh müqaviləsi imzalanandan sonra Bakıda saxlanılan hansı erməniyə amnistiya verilə və ya əfv oluna bilər? Yoxsa onlar aldıqları cəzanı axıradək çəkməlidir? Sülh müqaviləsindən sonra Azərbaycan Araik və digər hərbi cinayətkarları Ermənistana ekstradisiya edə bilərmi?

**"Bakı" Hüquq Şirkətinin rəhbəri, hüquqşünas Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, Azərbaycan qanunvericiliyinə əsasən şəxs fərdi əfv, həm də amnistiya aktı ilə azad oluna bilər:** "Azərbaycan Respublikasının Prezidentinə Konstitusiyanın 109-cu maddəsi ilə belə bir səlahiyyət verilib. Yəni istənilən məhkum edilmiş şəxs, o cümlədən Ermənistan vətəndaşı da əfv və ya amnistiya hüququndan yararlana bilər. Sülh sazişindən sonra hansısa mərhələdə ümumi amnistiya tətbiqi nəzərdən keçirilə bilər. Lakin bu, avtomatik şəkildə bütün məhkumlara aid olmayacaq. Ağır cinayətlər, xüsusilə mülki şəxslərin öldürülməsi, əsirlərin işgəncəyə məruz qalması və mina terroru kimi əməllər beynəlxalq hüquqa görə insanlıq əleyhinə cinayətlər sayılır. Bu cür cinayətlərdə ittiham olunan şəxslər amnistiya siyahısına daxil edilə bilməz. Əgər belə addım atılsa, Azərbaycan hüquqi və siyasi müstəvidə ciddi tənqidlərə məruz qala bilər".

**Natiq Ələsgərov bu məsələdə daha kəskin mövqedədir:** "Azərbaycanın bu şəxsləri Ermənistana ekstradisiya etməsi hüquqi baxımdan yalnız o halda mümkündür ki, tərəflər arasında ekstradisiya haqqında ayrıca müqavilə olsun. Hazırda belə bir sənəd yoxdur. Hər hansı sülh sazişinə bu cür bənd əlavə edilsə belə, Azərbaycan tərəfi bu şəxslərin törətdiyi əməlləri nəzərə alaraq, onların Ermənistana qaytarılmasını yolverilməz hesab edə bilər. Çünki bu, beynəlxalq hüquqda müharibə cinayətlərinə görə cəzasızlıq prinsipinə zidd olar".

**O əlavə edib ki, beynəlxalq təcrübədə sülh sazişlərində məhkum mübadiləsi yalnız az ağır və ya siyasi xarakterli cinayətlər üzrə həyata keçirilir:** "Ağır müharibə cinayətləri isə mütləq yerli və ya beynəlxalq məhkəmələrin hökmü ilə qüvvədə qalır. Bu baxımdan İsrailin "terror simvollarına güzəşt yoxdur" prinsipi əslində dövlətin təhlükəsizlik doktrinasının təzahürüdür. Azərbaycan da 30 il işğal, minlərlə itkin və yüzlərlə müharibə cinayətinin nəticələrini yaşamış bir ölkə kimi bu məsələdə oxşar yanaşmanı seçə bilər. Əgər sülh müqaviləsi reallığa çevriləcəksə, hüquqi mexanizmlər də ədalət üzərində qurulmalıdır. Əfv humanizm aktıdır, amma ədalətin əvəzində olmamalıdır".

**Natiq Ələsgərov deyib ki, Bakı sülh sazişi imzalasa belə, Araik Arutyunyan kimi "simvolları" azad etməyə tələsməməlidir:** "Çünki hüququn nüfuzu və dövlətin ədalət prinsipi sülhün ən mühüm təminatıdır. 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayan, Azərbaycan xalqına qarşı soyqırım cinayətləri törətmiş şəxslərə güzəşt olmamalıdır. Onların törətdikləri əməllərin qarşılığı ABŞ-də ölüm hökmü olardı. Azərbaycanda isə ölüm hökmü cəza olaraq tətbiq olunmur. Bu baxımdan hər hansı bir güzəştdən söhbət gedə bilməz".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 182 (8792) 9 oktyabr 2025

# Prezidentdən "Türk NATO-su" təklifi - bədxahlara gözdağı

## 2026-cı ildə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təliminin keçirilməsi təşəbbüsü TDT ilə bağlı yeni hədəflərin anonsudur




**Arzu Nağıyev:** "Cənab Prezidentin bu təklifi ciddi töhfələr verəcək və böyük güclər qarşısında türk dövlətlərinin siyasi çəkisini xeyli artırmaq imkanını təmin edəcək"
**Elçin Mirzəbəyli:** "Bu təşəbbüs XXI əsrdə Türk birliyinin təkcə mədəni və siyasi deyil, həm də hərbi-strateji güc mərkəzinə çevrilməsi yolunda tarixi addımdır"

**Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə görüşü keçirilib. Prezident İlham Əliyev çıxışında TDT-yə üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edib. "Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təliminin keçirilməsini təklif edirik", - deyə Prezident Əliyev təşəbbüs irəli sürüb.**

Heç şübhəsiz ki, Azərbaycan Prezidentinin 2026-cı ildə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təliminin keçirilməsi təşəbbüsü TDT ilə bağlı yeni hədəflərin anonsudur. TDT-nin "Regional Sülh və Təhlükəsizlik" mövzusuna həsr olunmuş Qəbələ Zirvəsində belə bir anonsun səslənməsi bəzi qüvvələri və paytaxtları əbəs yerə narahat edir, çünki Turan ordusunun, "Türk NATO-su"nun varlığı hər hansı ölkəyə qarşı təhdid deyil, sadəcə, sülhə, təhlükəsizliyə töhfə sayılmalıdır. Hansısa mərkəzlərin necə düşünməsindən asılı olmayaraq, artıq "Türk NATO-su", yaxud "Turan ordusu" yaradılması bir zərurətə çevrilib. Dünyada gedən geopolitik qarşıdurmalar, blokların və qütblərin yaranması, "soyuq müharibə"nin dərinləşməsi, təhlükəsizlik probleminin bir nömrəli məsələyə çevrilməsi TDT-nin hərbi qanadının yaranmasını da qaçılmaz edir. Zaman-zaman da bu təkliflər səslənib ki, 400 milyonluq türk coğrafiyası üçün təhlükəsizlik çətiri yaradılsın. Türkiyə ilə yanaşı Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Özbəkistan və digər ölkələrlə olan əməkdaşlığın gücləndirilməsi, gələcəkdə TDT-nin daha da güclü birlik halına gəlməsi ortaq ordu qurulması baxımından vacibdir.

Mövzumuzla əlaqədar Milli Məclis üzvlərinə müraciət etdik.

**Milli Məclisin Müdafiə, təhlükəsizlik, korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Türk Dövlətləri Təşkilatının (TDT) Qəbələdə keçirilən Zirvə toplantısının ən mühüm istiqamətlərindən biri təhlükəsizlik məsələləridir: "Məlumdur ki, hər bir dövlətə yönələn təhdidlərin qarşısının alınması, bu gün dünyada baş verən proseslər və beynəlxalq düzənin pozulması fonunda, zəruri və qaçılmazdır. Əsas məqam ondan ibarətdir ki, Türk Dövlətləri Təşkilatı artıq "yumşaq güc" mərhələsindən çıxaraq hərbi əməkdaşlıq, birgə təlimlərin keçirilməsi, xüsusi xidmət orqanları səviyyəsində məlumat mübadiləsi və digər təhlükəsizlik məsələlərinin həlli istiqamətində konkret addımlar atır. 2026-cı ildə planlaşdırılan birgə təlimlərlə bağlı cənab Prezident İlham Əliyevin təklifi, üzv dövlətlərin həmin il Azərbaycanda birgə təlimlər keçirməsi təşəbbüsü, təkcə simvolik deyil, həm də praktik baxımdan son dərəcə mühüm addımdır. Bu, sırf hərbi tədbir deyil, Türk dünyasının təhlükəsiz inteqrasiyasına doğru atılmış strateji və düşünülmüş təşəbbüsdür".

**A.Nağıyev qeyd etdi ki, gələcəkdə bu təşəbbüs "Türk NATO-su" kimi strukturun hüquqi və siyasi əsaslarını möhkəmləndirə bilər, lakin ilkin mərhələdə məqsəd əməkdaşlıq, koordinasiya və qarşılıqlı müdafiə mədəniyyətini formalaşdırmaqdır:** "Məlumdur ki, təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq bundan sonra daha da dərinləşdiriləcək. Üzv ölkələrin orduları arasında taktiki və strateji baxımdan uyğunluq yaradılacaq, regionda strateji həmrəylik nümayiş etdiriləcək və müxtəlif strategiya, taktika və müdafiə mexanizmlərinin praktiki sınaqdan keçirilməsi mümkün olacaq. Eyni zamanda Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan kimi ölkələrin bu prosesdə bir araya gəlməsi türk dünyasının "birləşmiş güc" konsepsiyasının formalaşmasına zəmin yaradacaq. Təbii ki, "Türk NATO-su" ifadəsi daha çox siyasi-analitik müstəvidə işlədilir". **Komitə sədrinin sözlərinə görə, hələlik bu, formal bir təşəbbüs xarakteri daşımır, lakin bu istiqamətdə təcrübə toplanır:** "Türkiyə, NATO üzvü kimi, öz hərbi təcrübəsini və standartlarını digər türk dövlətləri ilə bölüşür. Azərbaycanla Türkiyə arasında mövcud olan müttəfiqlik münasibətləri və Şuşa Bəyannaməsi kimi sənədlər, eləcə də digər türk dövlətləri arasında imzalanan bənzər razılaşmalar bu prosesin əsasını təşkil edir. Müdafiə sənayesinin inkişafı, birgə təlimlər və kadr mübadiləsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir".

**A.Nağıyev reallığı düzgün qiymətləndirməyi vacib sayır**: "Təbii ki, belə bir struktur bir anda formalaşa bilməz. Bu, zamanla təkmilləşməli və təhlükəsizlik məsələlərində müəyyən dövlətlərin etirazlarına baxmayaraq inkişaf etməlidir. Bunlar müxtəlif fikirlər irəli sürə bilərlər, lakin əsas məqam ortaq təhlükəsizliyin təmin edilməsidir. Regional sabitlik, xarici təhdidlər və qeyri-sabitlik hallarında müdafiə məsələlərinin yenidən nəzərdən keçirilməsi, eləcə də Orta Asiya və Qafqazda müxtəlif istiqamətlərdə təhlükəsizlik kəmərinin yaradılması çox mühüm əhəmiyyət daşıyır. Düşünürəm ki, cənab Prezidentin bu təklifi ciddi töhfələr verəcək və böyük güclər qarşısında türk dövlətlərinin siyasi çəkisini xeyli artırmaq imkanını təmin edəcək".

**Milli Məclisin komitə sədri vurğuladı ki, hər bir dövlət özünün müstəqil, daxili və xarici siyasətini qurur:** "Bu gün dövlət və dövlətçiliyə olan təhdidin qarşısını alınması ən mühüm məsələdir, ən mühüm strategiyadadır. Burada nəzərdə tutulan təşəbbüsün NATO və ya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi bloklara alternativ kimi qiymətləndirilməsi isə tamamilə yanlış olar. Bu, daha çox tamamlayıcı xarakter daşıya bilər. Yəni məqsəd yeni blok yaratmaq deyil, türk dünyasının müdafiə və strateji koordinasiya qabiliyyətini artırmaqdır. Bu baxımdan bir daha vurğulamaq istəyirəm ki, Ali Baş Komandan kimi cənab İlham Əliyevin təklifi bu istiqamətdə çox mühüm əhəmiyyət daşıyır və bu gün dünyada baş verən hadisələr kontekstində ən vacib və düzgün qərar hesab edilməlidir".

**Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, deputat Elçin Mirzəbəyli** bu mövzuda qəzetimizə açıqlamasında bildirdi ki, oktyabrın 7-də Qəbələdə keçirilmiş Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə görüşündə Prezident İlham Əliyevin 2026-cı ildə Azərbaycanda TDT-yə üzv ölkələrin birgə hərbi təliminin keçirilməsi təklifi əslində təkcə təhlükəsizlik sahəsində əməkdaşlığa çağırış deyil, həm də Türk dünyasının gələcək geosiyasi konturlarını müəyyənləşdirən strateji bəyanatdır: "Prezidentin bu çıxışı Türk dövlətləri arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində inteqrasiyanın yeni mərhələsinə keçidin başlanğıc nöqtəsi kimi dəyərləndirilə bilər. İlham Əliyevin təşəbbüsü bir daha göstərir ki, Türk Dövlətləri Təşkilatı, artıq yalnız iqtisadi, mədəni və humanitar əməkdaşlıq formatı ilə kifayətlənə bilməz. Müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik məsələsi hər bir regional təşkilatın dayanıqlığının əsas şərtinə çevrilib. Dünya miqyasında dərinləşən geosiyasi qarşıdurmalar, qütblərin və blokların yaranması, yeni "soyuq müharibə"nin elementlərinin müşahidə olunması şəraitində TDT-nin özünün hərbi-siyasi güc mərkəzinə çevrilməsi strateji zərurətdir".

**E.Mirzəbəyli bu təşəbbüsün həm də 400 milyonluq Türk coğrafiyası üçün təhlükəsizlik çətirinin formalaşdırılması baxımından mühüm addım olmasına diqqət çəkdi:** "Əgər keçmişdə Türk xalqlarının inteqrasiyası ideyası mədəni və mənəvi birliyə xidmət edirdisə, bu gün həmin birlik praktik təhlükəsizlik mexanizmləri üzərində qurulmalıdır. Hərbi təlimlərin təşkili, müdafiə sənayesi və kəşfiyyat sahəsində koordinasiyanın artırılması, ortaq qərargah mexanizmlərinin yaradılması gələcəkdə Türk dövlətlərinin hərbi ittifaqına aparan yoldur. Azərbaycanın bu təşəbbüsü irəli sürməsi tam məntiqlidir. Çünki Azərbaycan son illərdə regional sabitlik və təhlükəsizlik arxitekturasının formalaşmasında aparıcı rol oynayır. 44 günlük Vətən müharibəsində əldə edilmiş qələbə və Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının uğurlu nəticələri göstərdi ki, milli müdafiə strategiyasını müasir texnologiyalar, çevik diplomatiya və real döyüş təcrübəsi üzərində quran ölkələr bölgədə yeni güc balansı yarada bilər. Bu baxımdan, Müzəffər Ali Baş Komandan İlham Əliyevin təklifi təkcə siyasi ideya deyil, konkret təcrübəyə söykənən strateji təşəbbüsdür".

**Millət vəkili xüsusilə vurğuladı ki, dünyada baş verən proseslər Türk dövlətlərini bir-birinə daha sıx bağlanmağa məcbur edir:** "Qərb və Şərq arasında formalaşan yeni rəqabət, Asiya və Avropa arasında enerji və logistika marşrutlarının dəyişməsi, regionda sabitliyi pozmaq istəyən qüvvələrin aktivləşməsi TDT-nin öz təhlükəsizlik mexanizmini qurmasını qaçılmaz edir. Bu həm də bədxah qüvvələrə açıq mesajdır: Türk dövlətləri artıq ayrı-ayrılıqda deyil, vahid maraqlar ətrafında birləşmiş strateji mərkəz kimi çıxış edirlər".

**E.Mirzəbəylinin fikrincə, bu prosesin uğurla davam etməsi TDT-nin siyasi birlikdən real strateji ittifaqa çevrilməsini təmin edə bilər:** "Əgər 2026-cı ildə planlaşdırılan birgə təlimlər həyata keçirilərsə, bu, gələcəkdə Türk dövlətlərinin müdafiə alyansının hüquqi-siyasi əsaslarını formalaşdıra bilər. Belə bir mexanizm nəinki regional təhlükəsizliyə, həm də beynəlxalq güc balansına yeni, ədalətli və tarazlaşdırılmış format gətirəcək. Prezident İlham Əliyevin Qəbələdə səsləndirdiyi ideya bir daha nümayiş etdirdi ki, Türk dünyası nə Qərbin, nə də Şərqin orbitində olmaq niyyətindədir. Türk dövlətləri öz təhlükəsizlik arxitekturasını, öz kollektiv müdafiə sistemini və öz suverenlik doktrinasını formalaşdırmaq istiqamətində qəti iradə nümayiş etdirir. Bu təşəbbüs XXI əsrdə Türk birliyinin təkcə mədəni və siyasi deyil, həm də hərbi-strateji güc mərkəzinə çevrilməsi yolunda tarixi addımdır".

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 182 (8792) 9 oktyabr 2025

# Zurabyandan Paşinyanla bağlı şok iddia - "Maniakal dərəcədə..."



**Ermənistan Milli Konqresinin sədr müavini Levon Zurabyan baş nazir Nikol Paşinyanın keçmiş prezidentlərlə debat keçirmək mövzusuna "maniakal dərəcədə bağlandığını" bildirib.**

Musavat.com xəbər verir ki, bu barədə o, feysbuk səhifəsində yazıb. Onun sözlərinə görə, Paşinyan son 6 ay ərzində bu məsələni təxminən 30 dəfə gündəmə gətirib, hətta bir dəfə debatları özünün vaxtilə saxlandığı Milli Təhlükəsizlik Xidmətinin təcridxanasında keçirməyi belə təklif edib.

Zurabyan hesab edir ki, bu davranışın arxasında psixoloji gərginlik və ifşa olunmaq qorxusu dayanır: "Dünyada heç bir lider öz sələfləri ilə debat aparmaq istəyi göstərməyib. Tramp, Makron, Starmer və digərləri belə addım atmazdılar. Paşinyanın bu həvəsi xəstəlik səviyyəsindədir".

❑ "Yeni Musavat"

# Ovannisyan müxalifət üçün son dönüş nöqtəsindən danışdı

**Ermənistanda növbəti parlament seçkiləri yaxınlaşır və bu proses yerli siyasi mühitdə canlanma yaradıb.**

Musavat.com xəbər verir ki, yerli siyasi analitik, revanşist mövqeyi ilə tanınan Andranik Ovannisyan indidən müxalifət üçün bədbin fikirlər səsləndirib.

O, yerli müxalifətin qarşıdakı mərhələdə ciddi struktur və ideoloji dəyişikliklərə getməməsi halında 2021-ci ildəki aqibətlə üzləşəcəyini söyləyib.

Ovannisyana görə, Ermənistan vətəndaşları artıq səthi dəyişikliklərə - partiyaların ad dəyişikliyinə, populist vətənpərvərlik şüarlarına və eyni simaların dövriyyəsinə reaksiya vermir.

❑ "Yeni Musavat"

# Ermənilərin 74%-i hesab edir ki, Azərbaycanla sülh... - sorğu

**Ermənistanın müxalif "Ayakve" hərəkatının bəyanatında bildirilir ki, bu ilin iyulunda - 8 avqustda Vaşinqton razılaşmasından əvvəl - keçirilmiş sorğunun nəticələri kifayət qədər maraqlıdır.**

Musavat.com xəbər verir ki, bu barədə erməni mediası məlumat yayıb.

Bəyanatda qeyd olunur: "Yaxın vaxtlarda keçiriləcək yeni sorğular göstərəcək ki, bu razılaşma ictimai əhval-ruhiyyəyə necə təsir edib, baxmayaraq ki, əsaslı dəyişiklik gözlənilmir. İyul ayında keçirilmiş sorğuya əsasən, respondentlərin 74 faizi hesab edir ki, Azərbaycanla sülh mümkün deyil. Əvvəlki sorğularla müqayisədə bu göstərici əhəmiyyətli dərəcədə artıb".

❑ Musavat.com

# Ermənistandan Gəncəyə atılan raketin bədəli... - təzminat tələbi

## Bakı həbsxanasındakı separatçılar hər şeyi etiraf ediblər; Azərbaycan haqqı üçün beynəlxalq məhkəməyə çıxır...



**2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Gəncə şəhərinin raketlərlə vurulmasına dair sənədlər elan edilib.**

Tədqiq olunan sənədlərdə göstərilib ki, Ermənistan Silahlı Qüvvələri atəşkəs rejimini və beynəlxalq hüquq normalarını, o cümlədən silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq, 2020-ci il oktyabr ayının 4-də, 5-də, 8-də, 11-də və 17-də cəbhədən uzaqda yerləşən Gəncə şəhərində yaşayış məntəqələrinə, hərbi hədəf olmayan mülki obyektlərə, həmçinin mülki əhaliyə 9K58 "Smerç" (BM-30) və 9K72 "Elbrus" tipli raketlərlə zərbələr endiriblər.

Aparılmış araşdırmalarla müəyyən edilib ki, raketlərin çoxu 275 km uzaqlıqdan, Ermənistanın Vardenis yaşayış məntəqəsindən Gəncəyə atılıb.

Bu tip raketlər strateji silah sistemlərinə aid olduğundan, tətbiq hüququ müvafiq dövlətin başçısına, habelə onun razılığı ilə müdafiə nazirinə məxsusdur. Təqsirləndirilən David Manukyan da məhkəməyə müraciət edərək nümayiş olunan raket qurğularının və onların tətbiqinə dair "əmr" verməyin qondarma rejimin "rəhbərliyinin və ordusunun" səlahiyyətində olmadığını bildirib.

Artıq Gəncənin vurulması əmrinin qondarma rejimin yox, Ermənistanın hərbi-siyasi rəhbərliyindən gəldiyi təsdiqini tapıb.

Bundan sonra Bakı İrəvana qarşı iddia qaldıra bilərmi? Təzminat tələb etməliyikmi?

**Tanınmış hüquqşünas, siyasi şərhçi Qulamhüseyn Əlibəyli "Yeni Müsavat"a dedi ki, Azərbaycanın bütün bunlarla bağlı beynəlxalq məhkəməyə müraciət etməyə tam haqqı çatır**: "Təkcə Gəncəyə raket atılmasına görə deyil, bütün işğal dövründə, o cümlədən 44 günlük Vətən müharibəsi dövründə Azərbaycana qarşı edilən hərəkətlərə və beynəlxalq xarakterli cinayətlərə görə həm qondarma rejimin hazırda mühakimə olunan rəhbərliyi, həm də Ermənistanın siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır. Azərbaycanın əraziləri Ermənistan birbaşa Rusiyanın köməyi ilə işğal edib. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisinin Ermənistana birləşdirilməsi haqqında Ermənistan Ali Sovetinin qərarı var və qondarma rejim də Ermənistan tərəfindən yaradılıb. Bu rejimin rəhbərləri Ermənistanın hərbi-siyasi rəhbərlərindən asılı vəziyyətdə olub, onların qərarlarını və göstərişlərini yerinə yetiriblər. Vətən müharibəsi dövründə də Azərbaycana qarşı vuruşan hərbi hissələrin əksər hissəsi Ermənistan Silahlı Qüvvələrinə məxsus olub. Əslində qondarma rejimin rəhbərliyi Ermənistanın hərbi siyasi rəhbərliyinin əlaltısı kimi fəaliyyət göstərib, onların qərarlarının və göstərişlərinin icraçıları olublar. Ona görə də Azərbaycana qarşı müharibə cinayətlərinə görə həm qondarma rejimin rəhbərliyi, həm də Ermənistanın hərbi-siyasi rəhbərliyi birbaşa məsuliyyət daşıyır.

Gəncə şəhərinə bir neçə dəfə raketlərlə hücum edilməsi, dinc mülki əhaliyə qarşı ermənilərin törətdikləri ağır müharibə cinayətlərində bir epizoddur. O cümlədən Bakı şəhərinə də "İsgəndər" raketi ilə hücum təşkil ediblər. Həmin raket hücumları Ermənistan ərazisindən təşkil edilib. Və göstərişlərin Ermənistanın siyasi-hərbi rəhbərliyi tərəfindən verilməsi şübhə doğurmur. Lakin göstərişlərin Ermənistanın siyasi-hərbi rəhbərliyi tərəfindən verilməsi qondarma rejimin rəhbərlərini məsuliyyətdən azad etmir.

Dinc mülki əhaliyə qarşı raket hücumları beynəlxalq xarakterli ağır müharibə cinayəti hesab olunur. Ona görə də Azərbaycanın Beynəlxalq Ədalət Məhkəməsi qarşısında Ermənistana qarşı iddia qaldıraraq həm bu cinayəti törədən şəxslərin cəzalandırılması, həm də vurulmuş ziyana görə təzminat tələbini irəli sürməyə tam haqqı çatır. Lakin beynəlxalq bürokratiyanın ləngliyini nəzərə almaqla belə iddiaya yaxın zamanda baxılacağı o qədər də inandırıcı görünmür".

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov Ermənistana qarşı təzminat davasının açılmasını əsas şərt sayır**: "30 il ərzində ərazilərimizi işğal altında saxlayan, infrastrukturu, tarixi-mədəni abidələri məhv edən, bir milyona yaxın insanımızı öz dədə-baba yurdlarından, doğma evlərindən didərgin salan, mülklərini ələ keçirən, Birinci və İkinci Qarabağ savaşında soyqırımlar törədən, Gəncəni, Bərdəni, Tərtəri raket atəşinə tutaraq mülki insanları hədəfə alan, ərazilərdəki təbii sərvətlərimizi uzun bir dövr ərzində talan edən bir dövlətə qarşı təzminat davasının açılması şərtdir.

Bu, həm erməni cinayətlərinin hüquqi müstəvidə təsdiqi, həm də tarixi ədalətin bərpası üçün vacib addımdır. Ümumiyyətlə, qeyd edim ki, təzminat müharibə nəticəsində dəymiş itkilərin kompensasiyasıdır və təcavüzkar dövlət tərəfindən ödənilir. Təcavüzkarın kim olduğu və haqqında danışılan Gəncə terrorunun kimlər tərəfindən həyata keçirildiyi isə ortadadır.

Məlumdur ki, Gəncəyə ilk hücum 4 oktyabrda baş vermiş və 1 mülki şəxsin Əliyev Tunar Qoşqar oğlunun şəhid olması, 30-dan çox mülki şəxsin yaralanması ilə nəticələnib. İkinci raket hücumu isə 5 oktyabrda baş verib. Hücum nəticəsində 3 mülki şəxs yaralanmışdı. Daha sonra ayın 8-də üçüncü raket hücumu, oktyabrın 11-də dördüncü raket hücumları oldu və bu hücumlar 10 mülki şəxsin şəhid olması və 40-dan çox insanın yaralanması ilə nəticələndi. Mülki şəxsləri hədəf alan beşinci raket hücumu isə 17 oktyabrda baş verdi ki, bu zaman 16 nəfər şəhid oldu, 55 nəfər yaralandı. Onu da qeyd edim ki, Gəncəyə edilən terror hücumları zamanı dünyasını dəyişənlərdən 6-sı, xəsarət alanlardan 48-i yetkinlik yaşına çatmayanlardır.

Separatçı rejim rəhbərlərinin də verdiyi ifadələrdən məlum olur ki, Gəncəyə edilən hücumla bağlı əmr birbaşa Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən verilib. Odur ki, Azərbaycan olaraq bizim təkcə təzminat deyil, həm də müharibə cinayəti ilə bağlı iddia qaldırmaq hüququmuz var.

Azərbaycanla Ermənistan arasında paraflanan sülh sazişində tərəflərin bir-birinə qarşı qaldırdıqları məhkəmə iddialarını geri çəkməsi və ya belə iddialarla çıxış etməməsinə dair müddəa da bizə müvafiq məhkəmə iddiası qaldırmağa qadağa qoymur. Sülh sazişinin 15-ci maddəsi qaldırılan iddiaların geri çəkilməsi ilə yanaşı, həmin iddiaların hər hansı formada həll edilməsini də nəzərdə tutur. Odur ki, Azərbaycanın həm öz qanunvericiliyinə, həm beynəlxalq hüquqa, həm də elə Ermənistanla paraflanan sülh sazişinə görə müvafiq məhkəmə iddiası qaldırmaq və təzminat tələb etmək hüququ var".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# Azərbaycan dron istehsalına başladı, Ermənistanda təşviş

## Bakıdan İrəvana reaksiya:
## "Xoflanma, sənə hücum üçün deyil"

**Türkiyənin "Baykar Makina" şirkətinin yerli törəməsi "Bayraktar Teknoloji Azərbaycan" MMC pilotsuz uçuş aparatlarının (PUA) istehsalına başlayıb.**

Müəssisə istehsalı İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Sənaye Parkında həyata keçirir. Məhsullar hələ ki daxili bazar üçün nəzərdə tutulub.

"Armenianreport" portalı yazır: ""Bayraktar Teknoloji Azərbaycan" MMC-nin Sumqayıt şəhərində fəaliyyətə başlaması xəbəri diqqəti cəlb edir. Bir müddət əvvəl Azərbaycan Qarabağda döyüşmək üçün Türkiyədən "Bayraktar" pilotsuz uçan aparatları alıb və indi öz torpağında istehsal yaradılıb.

Belə çıxır ki, "sülhsevər" qonşumuz getdikcə daha çox silahlanır, xüsusən də ən son sistemlərə (dron, kəşfiyyat, döyüş texnikası və PUA) sərmayə qoyur.

Ermənistanın vəziyyətini başa düşmək üçün büdcə rəqəmlərinə, hökumət qərarlarına və onların rəsmi və qeyri-rəsmi şəkildə necə izah edildiyinə baxmaq vacibdir".

Erməni mediası qeyd edir ki, 2025-ci ildə Ermənistanın müdafiə büdcəsi 664,6 milyard dram və ya təxminən 1,7 milyard dollardır. 2026-cı ilin büdcə layihəsində təxminən 563,1 milyard dram, 2025-ci illə müqayisədə 101,5 milyard dram azalma (təxminən 15% azalma) nəzərdə tutulur.

Baş nazir Nikol Paşinyan və maliyyə naziri vurğulayır ki, müdafiə xərcləri 2025-ci ildə "həddindən artıq artıb" və bu, qismən əvvəllər 2030-2035-ci illər üçün nəzərdə tutulmuş borc öhdəliklərinin ödənilməsi ilə bağlıdır. "Bu arada Ermənistan müdafiə büdcəsini azaltmağı planlaşdırdığı halda, Azərbaycan tam əks tendensiya nümayiş etdirir", - deyə erməni saytı bildirir.

Azərbaycanın PUA istehsalında iştirakı Ermənistanı narahat etməlidirmi? Erməni tərəfi niyə belə təşvişə düşüb?




**Milli Məclisin deputatı Elman Nəsirov "Yeni Müsavat"a bildirdi ki, Türkiyə PUA-ların istehsalında dünyada aparıcı dövlətlərdən biridir:** "Bu ölkəyə məxsus "Baykar Makina" şirkəti dünya bazarında xüsusi çəkiyə malikdir. Eyni zamanda da bu şirkətin törəməsi olan "Bayraktar Teknoloji Azərbaycan" MMC Azərbaycanda PUA-ları istehsal etməkdədir. Bu, təbii, ordumuzun daha da güclənməsi mənafeyinə xidmət göstərir. 2026-cı il üçün hərbi büdcənin də artırılması nəzərdə tutulub. Hazırda Azərbaycanın hərbi büdcəsi 8,4 milyard manat təşkil edir. Erməni KİV-ləri bu faktlara fərqli prizmadan yanaşmaq istəyir. Azərbaycanı silahlanmada, hərbi büdcəsini artırmaqda ittiham edirlər və sual edirlər ki, niyyətimiz nədir. Azərbaycan dövləti, Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, biz sülh müqaviləsini paraflamışıq və sülh müqaviləsini imzalamaq istəyirik, regionumuza uzunmüddətli və daimi sülhün gəlməsində maraqlıyıq. Ancaq Ermənistan nədən narahatdır? Ermənistan bir baxsın ki, özü və Azərbaycan hansı coğrafiyada yerləşir, hansı qonşuların əhatəsindədir. Bu vəziyyətdə dövlətin, ordunun güclü olmasından təbii heç nə yoxdur. Ermənistanın öz daxilində revanşistlər aktivdir. Belə bir reallıqda Azərbaycan dövləti özünün hərbi potensialını, müdafiə qüdrətini artırmalıdır. Ermənistanda revanşizmin kökünün tamamilə kəsildiyi bir reallıqda, Azərbaycana qarşı təhdidlər sıfıra enəcəyi reallıqda Azərbaycanın da ilbəil hərbi büdcəsini artırmağa ehtiyacı qalmaz. Biz ona görə hərbi gücümüzün və təhlükəsizlik potensialımızın artırılmasında maraqlıyıq ki, birincisi, mürəkkəb coğrafi məkanda yerləşirik, ikincisi Ermənistanda revanşizm güclüdür. Bütün bu reallıqlar vadar edir ki, Azərbaycan öz hərbi gücünü daha da artırsın. Bu gücləndirmə siyasəti üçüncü tərəfi hədəfə almayıb və sülh niyyəti, sülh mahiyyəti kəsb edir. Bugünkü dünyamızda güc faktoru həlledicidir və sülhün təminatçısı amillərindən biridir".

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov isə bildirdi ki, Azərbaycan Ordusunun silah arsenalına yeni PUA-ların daxil olması, həmçinin Azərbaycanın hərbi büdcəsinin artırılması hansısa ölkəyə qarşı müharibə etmək üçün deyil:** "Bu addımlar tamamilə təbiidir. Azərbaycan öz ordusunu Türkiyə-NATO ordusu modelinə tam keçirməyi qarşısına məqsəd qoyub. Bu isə təbii olaraq ordunun yeni modern silahlarla, texnikalarla, qırıcılarla, yeni PUA-larla təmin olunmasını, xərclərin artırılmasını tələb edir. Azərbaycan da bu tələbə uyğun addımlar atır. Ermənistanın bundan xoflanmasına ehtiyac yoxdur. Azərbaycan sülh tərəfdarı olduğunu ən yüksək səviyyədə imzası ilə nümayiş etdirib. Azərbaycan nəinki sülh tərəfdarı kimi, hətta sülh yaradıcısı rolunda uzun müddətdir çıxış etməkdədir. Ermənistanın xisləti elədir ki, hər kəsi özü kimi - imzasına, sözünə sadiq qalmayan dövlət kimi görür. Ona görə də zənn edir ki, Azərbaycanın hərbi büdcəsinin artırılması və yeni PUA-ların, dronların istehsalına başlaması Ermənistana qarşıdır. Sülh sazişi imzalanandan sonra da Azərbaycan təbii olaraq ordusunu gücləndirməkdə, yeni müasir silahlarla təmin etməkdə davam edəcək. Çünki sülh istəyirsənsə, müharibəyə hazır olmalısan. Dünyada, regionda proseslər elə sürətlə cərəyan edir, elə yeni reallıqlar meydana gəlir ki, ordunu gücləndirmək, təhlükəsizlik məsələlərinə çox ciddi diqqət ayırmaq hər keçən gün daha da zərurətə çevrilir. Azərbaycan da bunu nəzərə alır. İrəvan burada özünə qarşı təhdid axtarmamalıdır. Lakin şübhəsiz ki, nə zamansa Ermənistan köhnə adətinə qayıdaraq öz istəyi və ya kənardan diktənin təsiri altında Azərbaycana qarşı təxribatlara əl atacaqsa, ən ağır cavabını alacaq. Azərbaycan Ordusunun gücləndirilməsi ölkəni qorumaq üçündür".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Siz güclənəcəksiniz, biz armud dərəcəyik? Ay hay!



**Xalid KAZIMLI**

**Ermənilərin "güclənib Qarabağı alacağıq" fikri indiki vaxtda utopik görünə bilər, ancaq bu, onların əsl, real niyyətidir və ideyadan heç vaxt vaz keçməyəcəklər.**

Söhbət, əlbəttə ki, zülm-zillətlə dolanan sadə xalqdan, arxa-dayaqsız yetim-yesirdən getmir. Yuxarıdakı niyyət ermənilərin oxumuş-gəzmiş, üzdə olan qisminə aiddir. Onlar mütləq yeni nəsillərin beynini zəhərləyəcəklər.

Belələri neçə yüz illərdir "millətin gələcəyini, bütövlüyünü, dövlətçiliyini, firavanlığını düşünmək" adıyla, xalqı qızışdırıb qabağa verir, özlərindən güclülərlə savaşa qısqırdır, axırda acı bir şəkildə məğlubiyyətə uğrayandan sonra oturub "əzabkeşlik" dastanları bağlayırlar.

Azı 200 ildir belədir. Bu müddətdə ermənilər İran, Suriya, Türkiyə, Rusiya kimi dövlətlərin ərazilərinə köçə-köçə qədim Azərbaycan torpaqları olan İrəvan, Vedi, Göyçə, Dərələyəz, Dilicanda bənd alıblar.

Amma buna qane olurlarmı? Olmurlar. 29,7 kvadrat kilometrlik dövləti onlara başda Rusiya olmaqla xarici güclər qurub verib. Yoxsa öz qabiliyyətlərinə qalsa, özlərindən böyük xalqların içində partizanlıq edə-edə daha bədbəxt günlərə qalacaqdılar.

Ağıllı toplum əlində olana qane olar, iddiası gücündən artıq olmaz, özündən azı üç, otuz, yüz dəfə böyük qonşuları ilə sonu görünməyən intriqanın içinə girməz.

Bir vaxtlar biz də "güclənib Qarabağı işğaldan azad edəcəyik" deyirdik, amma ermənilərin eyni fikri ilə bizimkinin arasında iki böyük fərq var.

Birincisi odur ki, biz dövlət olaraq əzəl başdan ermənilərdən güclüydük, sadəcə, potensialımızı toparlamağımız lazım idi. I Qarabağ savaşını ona görə uduzmuşduq ki, müharibəyə hazırlıqsız yaxalanmışdıq, üstəlik, bizim qolumuzu tutanlar olmuşdu. Bir də ermənilərin himayədarları çox, bizimki isə yox idi. İran tam işğal olunmağımızı gözləyirdi, Türkiyənin o zamankı rəhbərləri isə xarici siyasətdə dilsiz, dişsiz siyasət yeridirdi, Vaşinqton nə deyirdisə, ona əməl edirdilər. Vaşinqton isə bizdən yana deyildi.

İkinci fərq odur ki, 1994-cü ildən ta 2020-ci ilə qədər biz əmin idik ki, bir gün ermənilərin başbilənləri öz mənfi səciyyəli maksimalistliklərinin və nankorluqlarının badına gedəcəklər. Ona görə Qarabağdan əl üzmürdük, bütün basqılara rəğmən onu güzəştə getmirdik, səbrlə əlverişli zamanın yetişəcəyini gözləyirdik.

Bizdən fərqli olaraq ermənilərin hərbi-siyasi elitası eyforiyaya qapılmışdı. Onlar özlərini Qafqazın ən qoçaq xalqı sayır, Qarabağı hansı dövlətlərin hesabına işğal etdiklərini unudur, 1988-ci ildən 1994-cü ilə qədər üzləşdikləri müqaviməti yaddan çıxarır, "tarixi qələbənin möhtəşəmliyi"ndən vəcdə gəlirdilər. Ermənilər dibinə sığındıqları qayanın kölgəsini öz kölgələri sayırdılar.

Gün gəldi, onların güvəndiyi dağları qar basdı və 6 il ərzində çətinliklə işğal etdikləri əraziləri 44+1 günün içində itirdilər.

İndi güclənməkdən, toparlanmaqdan, revanşdan danışırlar, məğlubiyyəti həzm edə bilmirlər.

Biz də məğlubiyyəti həzm edə bilmirdik, hesab edirdik ki, buna layiq deyilik, güclü ola-ola, sırf xəyanətkarların üzündən uduzmuşuq. Uzun illər biz o xainləri, hərbi sirləri birbaşa olmasa da, şimaldan dolandırmaqla düşmənə ötürənləri, döyüşçülərimizin götürdüyü yüksəklikləri tərk edib geri çəkilmələrini əmr edənləri ifşa edə bilmirdik. Amma bir gün o da oldu. Onlar ordunun başından kənarlaşdırıldı və uğur seriyamız başlandı.

Biz necə güclənəcəyimizi bilirdik, bəs qədər insan və təbii resurslarımız vardı. Dostlar, müttəfiqlər qazanmağımız da çətin olmadı.

Bəs ermənilər hansı potensiallarını toplayacaq? 35 il əvvəl, sovet dövründə 3 milyon 250 min civarında əhalisi olan Ermənistanda bu gün əhalinin sayı 3 milyondur. Bu 35 ildə ölkəmizin əhalisi 3 milyon artaraq 7 milyondan 10 milyona çatıb və o rəqəmi də aşıb. Ermənilstan əhalisi isə bu 35 ildə azalıb. Bu, bir fərq.

Ölkəmizin nefti, qazı, bərəkəyli torpağı, havası, suyu, qızılı, dənizi, maşallah, hər şeyi var. İnkişaf etmək, daha da güclənmək potensialımız ermənilərinkindən on qat artıqdır.

Belə olandan sonra biz oturub armud dərə-dərə gözləyəcəyik ki, ermənilər güclənsin və yenidən Qarabağı əlimizdən almaq istəsin?

Ağlasığmaz söhbətdir. Ermənilər güclənəcəksə, biz də güclənəcəyik, silahlanacaqlarsa, biz də silahlanacağıq, səfərbər olunacaqlarsa, biz də səfərbər olacağıq. Hər halda, bu potensialımız onlarınkından 3-4 dəfə artıqdır.

O xalq, nəhayət, keçmiş faciələrindən dərs çıxarmalı, özünə yığışmalıdır. Bax, belə edirlər ki, artmırlar, sonra da dünyaya səpələnirlər.

YENİ MÜSAVAT
N 182 (8792) 9 oktyabr 2025



# Rüsvayçılığın dərmanı

Zamin HACI
zaminhaci@gmail.com

**Dövlət orqanlarımızdan birinin yaradılması günü qeyd olunurdu. Rəsmi tədbirlər, konfranslar, ziyarətlər, təltiflər və tostlar bir-birinə qarışmışdı. Lakin indi həmin idarənin ismi-şərifini burada yazmağa çəkinirəm. Niyə? Qorxuram, göz dəyər! İzah edim.**

O quruma indiyə qədər kim başçılıq etmişsə, adı mütləq hansısa əlləm-qəlləm işlərdə hallanmışdır. Yadımda qalanı, ən azı 2 nəfəri türmədə yatıb (biri hələ də içəridədir - ipucu verirəm). Korrupsiya, səlahiyyət həddini aşma, cürbəcür vəzifə cinayətləri... Ən əsası isə həmin idarənin başçıları özlərinə zırpı ailə şirkətləri qurmaqları ilə tanınırdılar. İndiki müdirin adı isə, balaca bir dükanla da hallanmamışdır!

Şokdayam. Bu barədə düşünəndən özümə gələ bilmirəm. Niyə belə alınıb, məqsəd nədir, bizim axırımız necə olacaq - düşünməliyik. Dövlətçilik ənənələrimiz əldən gedir. Rüşvət toplamayan, şirkət yaratmayan müdirə camaat hörmət eləməz. Bu isə sabitliyə təhlükədir. Açıq yazıram. Başqa yolum qalmadı. Əlaqədar orqanlar istəsələr, həmin adı korrupsiyada hallanmayan idarə müdirinin kimliyini açıqlaya bilərəm. Ümid edirəm, onu həbs etmərik. Günahını boynuna alsa, uzağı şərti cəza ilə qurtulsun.

Atalar demişkən, sən ağa, mən ağa, inəkləri kim sağa? Ya da bu cür: camaat xəstələnəndə həkimə gedir, həkim xəstələnsə hara getsin?

Həkim demişkən, tibb universitetinə yüksək balla qəbul olunan gənclərin sonradan yaxşı oxumadığı üzə çıxmışdır. 146 nəfər ən yüksək bal toplayıb prezident təqaüdçüsü olanlardan hazırda cəmi 22 nəfəri əlaçı imiş, 956 tələbənin isə kəsiri varmış. O cümlədən regionlarda çoxlu həkim çatışmazlığı problemi yaranıb. Bütün bunlar təbabətimizin gələcəyi sarıdan nigarançılıq yaradır. Pandemiyanın davam etdiyi şəraitdə sərhədlərimizin bağlı qalması bizi hələlik xilas edir, bəs sabah necə olacaq?

Mən gələcək həkimlərimizdə təhsil eşqinin ölməsi səbəblərini anlayıram. Bu, həm bərbad dərslik və tədris prosesi, naftalin iyi verən pedaqoqlar üzündəndir, həm də oxumaq üçün stimul yoxdur. Yayda bir qahımı dövlət xəstəxanasında müalicəyə aparmışdıq, həkim dedi ki, bu prosedur üçün onun maaşına tibbi sığortadan 1 manat 50 qəpik əlavə olunacaq. Yeni həkimlərin maaşına əlavələr bu dərəcədə gülməli imiş. Haqlıdır-haqsızdır, deyə bilmərəm. Ancaq həkim xəstəxananın qabağındakı "levi stoyanşik"dən az qazanacaqsa, bunu oxumağım mənası nədir? Böyük ehtimalla tələbələr praktika üçün xəstəxanalara gedirlər, oradakı reallıqları görəndən sonra oxumaqdan vaz keçirlər.

İkincisi, oxumadan həkim olmaq mümkündürsə, oxumağın mənası nədir? Dəlləyin, saç ustasının cərrah, motoristin kardioloq işlədiyi ölkədə yaşayırıq. Bu günlərdə Bakıda bir zırıltı ad qoyulmuş tibbi konfrans keçirilirdi. Təsəvvür edin, "elmi konfransda" çoxlu deputatlar-filan da oturdulmuşdu. Ancaq konfransı təşkil edən "klinika"nın əslində rəsmi təbabətə sıfır qədər dəxli var, deyəsən, bunu ört-basdır etmək üçün adını "təbii üsullarla müalicə klinikası" qoyublar. Ot-əncər, dəvə tüpürcəyi, qoyun qığı, qarğa nəcisi tipli şeylərlə guya saç bərpa edirlər, adam sağaldırlar və sairə. Rəsmi dövlət qurumları bu cür şarlatanlığa niyə əncam çəkmir? Özləri əlbir olduqları üçün.

Ən karikatur detallardan biri isə o idi ki, konfransın ulduzu, təşkilatçısı olan şəxsin, ümumiyyətlə, tibbi təhsili yoxdur! Amma hər yerdə özünü "elmlər doktoru" adlandırır. Yəqin "oxumamış alim" deyəndə bunu nəzərdə tuturlar. İndi sizdən soruşuram, tibb fakültəsinin tələbələri nə üçün özlərinə əzab-əziyyət verib oxumalıdır? Üstəlik, onsuz da adamı saxlayanda Allah saxlayır...

Yazını da şairin misrası ilə bitirək, bunsuz olmaz: "Yoxdu bu rüsvalığın dərdinə dərman, ey təbib!"

---



# Zəngəzur dəhlizinə ilginc hədə - Trampın imzasını "sabotaj" edənlər...

## Xocalı canisini Moskvamı danışdırır? Üç liderin Ağ Evdə təsdiqlədiyi sənədlərlə bağlı axmaq iddiaya Bakıdan sərt təpki

**Ermənistanın ikinci prezidenti, Xocalı hərbi canisi Robert Köçəryan təzədən xortlayıb. Rusiyanın tulası olduğu şəkk-şübhə doğurmayan, tarixin zibilliyinə atılmış bu siyasi meyit oktyabrın 6-da İrəvanda keçirdiyi mətbuat konfransında yenə Kremlin maraqlarını təbliğ eləməyə çalışıb.**

Həmin maraqların bölgə xalqlarının, o sırada Ermənistan cəmiyyətinin mənafeyinə uyğun olmadığı artıq "daşlaşmış" həqiqətdir. Bu xüsusda avqustun 8-də Vaşinqtonda ABŞ prezidenti Donald Trampın qarantorluğu ilə imzalanmış məlum sənədləri, özəlliklə paraflanmış sülh sənədini Köçəryanın hədəfə alması və gözdən salmağa çalışması qətiyyən təsadüfi deyil.

Köçəryanın sözlərinə görə, əldə olunan razılaşmalardan yalnız ABŞ və Azərbaycan uduşda olub, Ermənistan hakimiyyəti isə yalnız xalqı növbəti dəfə aldatmaq imkanı qazanıb. "Birləşmiş Ştatlar gələcək dəhliz üzərində nəzarəti, İranla sərhədə effektiv nəzarət və Trampı Nobel mükafatına namizəd göstərmək imkanı əldə edib. Azərbaycan Ermənistan ərazisindən keçən dəhliz hüququ, Minsk Qrupunun buraxılması və 907 saylı qətnamənin ləğvinə nail olub", - Köçəryan bildirib.

O, sənədlərdə Ermənistanın xeyrinə heç nə tapmadığını iddia edib: "Heç nə, sıfır. Yalnız problemlər. Bircə Paşinyan Trampın imzası olan fotoşəkil, eləcə də heç bir hüquqi qüvvəsi olmayan və erməni xalqını növbəti dəfə aldatmağa imkan verən kağız əldə edib".

Diqqət edin, Xocalı canisi Ağ Evdə imzalanan, Tampın da imzası duran sənədləri, həmçinin paraflanan sülh müqaviləsini kağız parçası adlandırır. Yəni işarə vurur ki, hakimiyyətə radikalların əlinə keçsə, həmin sənədlər işləməyəcək.

Ermənistan Baş naziri Administrasiyasının rəhbərinin müavini Taron Çaxoyan ölkənin keçmiş prezidenti Robert Köçəryanın bu gün keçirdiyi mətbuat konfransında verdiyi açıqlamalarına münasibət bildirib. O, bu barədə sosial media hesabında yazıb. "Köçəryan erməni xalqına, Ermənistana nifrət edir. Əvvəlcə Ermənistanı müharibəyə qızışdırmaqda ittiham etdi, sonra bəyan elədi ki, Ermənistanı gəzmək, xalqla ünsiyyət qurmaq heç də xoş deyil. Bundan başqa nə deyə bilərdi?

Onu da açıqladı ki, siyasətə qarışmaq istəmir, amma onu (Rusiyadan) məcbur edirlər. Vaxtilə prezident kürsüsünü ələ keçirmiş Robert Köçəryan Ermənistan Respublikası üçün biabırçılıqdır", - Çaxoyan qeyd edib. İrəvan Şəhər Şurasının Hayk Saakyan da Robert Köçəryanın fikirlərinə reaksiya verib:

"Köçəryanın mətbuat konfransına məzmun baxımından reaksiya vermək istədim, amma uyğun bir söz tapmadım. Köçəryan dəyişməyib və dəyişməyəcək də. Necə ki, hakimiyyətdə olduğu illərdə bu xalqı iyrəndirib və nifrət oyadıb, eyni hal indi, müxalifətdə olduğu dövrdə də davam edir. Xəritə böyüyüb - Rusiyadan başqa dövlətlər də var (bu haqda da danışın). Cənab Köçəryan, Putinin doğum günü mübarək, başınızın üstündən əskik olmasın. Bu, kimyadır".

"Moskva hazırda Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatların olmamasından razıdır, amma "Tramp yolu" ilə bağlı bəzi suallar var". Bunu Rusiya Federasiya Şurasının Xarici Əlaqələr Komitəsi sədrinin birinci müavini Vladimir Cabarov deyib. "Tramp yolu" planının həyata keçirilməsinin asan olacağını düşünmürəm. Xüsusilə də Tramp administrasiyasının regiondan minlərlə kilometr uzaqda yerləşdiyini nəzərə alsaq, çoxlu suallar yaranır. Rusiya, Türkiyə və İran - hamısı buradadır. Ona görə də bu yol sülh, əməkdaşlıq yolu olmalı və Ermənistan və Azərbaycan da daxil olmaqla, bütün tərəflərə fayda verməlidir", - Cabarov qeyd edib.

Rusiyalı deputat bildirib ki, gələcək nəqliyyat arteriyası bütün tərəflər - həm Ermənistan, həm də Azərbaycan üçün faydalı olmalıdır: "Bu, bir ölkənin hesabına digərinin xeyrinə olan yol olmamalıdır. Bütün tərəflərin faydalanmasını təmin etmək üçün maraqlar balansı axtarılmalıdır".

Cabarovun iddiasına görə, Cənubi Qafqazda sabitliyin təmin edilməsində **Rusiyanın rolu "əsas" olaraq qalır**: "Rusiyanın iştirakı olmadan Ermənistanla Azərbaycan arasında bütün problemləri tam həll etmək mümkün olmayacaq. Rusiya sabit Cənubi Qafqazda və həm Ermənistan, həm də Azərbaycanla dostluq münasibətlərində maraqlı ölkə olub və belə də qalır. Bu yol üçüncü ölkələrin maraqlarına deyil, bu ölkələrin inkişafına xidmət etməlidir".

Ermənistan üçün, böyük sülh və Zəngəzur dəhlizi üçün belə bir təhlükə varmı? Rusiya öz sadiq itlərini hərəkətə keçirməklə nə dərəcədə pozucu niyyətinə çata bilər?

**Professor Qabil Hüseynli**nin fikrincə, Köçəryan başından böyük qələt edib. Onun sözlərinə görə, kağız parçası dediyi sülh sənədi Ermənistanın gələcəyinin, inkişafının və təhlükəsizliyinin təminatıdır. Müsahibimiz hesab edir ki, Köçəryanın yeri mətbuat konfransı deyil, Araikin yanıdır: "Bu həyasız məxluq seçkiqabağı yenə dirilib. Ona ən yaxşı cavabı elə Paşinyanın müavini verdi və Rusiyadan tapşırıq aldığını açıqladı. Çünki bu tezislər Rusiyanın siyasi mətbəxində hazırlanıb. O nöqteyi-nəzərdən qarşıdakı dövrdə belə axmaq fikirlər hələ çox eşidiləcək".

**Q.Hüseynli qeyd edib ki, Köçəryanın sözü qurtarıb deyə dalay-dalay edir:** "Bu sənəddə necə ola bilər ki, Ermənistan uduşla çıxmasın? Əvvəla, bölgəyə və erməni xalqına sülh, sabitlik, əmin-amanlıq gətirir. Burada elə ən böyük uduş odur ki, aramızda bir də müharibə olmasın və Köçəryanın yiyələri münaqişəni qızışdıra bilməsinlər. İkinci uduş Ermənistanın dəhlizdən iqtisadi divident əldə edəcəyi faktıdır. Üstəlik, başqa bir uduş Paşinyanın koridora nəzarəti Rusiyaya verməməsidir. Köçəryan daha nə istəyir? Eyni zamanda Türkiyə ilə sərhədlərin açılması perspektivi var, bu da Ermənistanın tarixi qazancı olacaq. Ona görə də radikal ünsürlərin 8 avqust sənədini təftiş etməyə mənəvi haqqı çatmır, ikincisi, bu təbliğat cəmiyyətdə çaşqınlıq yaratmağa, sülh sazişini spekulyasiya etməyə hesablanıb".

**Professorun sözlərinə görə, Ermənistanda radikalların hakimiyyətə qayıdış şansı sıfırdır:** "Onlar xalqın gözündən düşmüş qüvvələrdir. Erməni xalqı Köçəryanın iqtidarda olduğu dövrü yaxşı xatırlayır. Hər şeydən əvvəl əhali səfalət içində yaşayırdı, rüşvət və korrupsiya xirtdəyə qədər idi. Odur ki, Köçəryan, Sərkisyan, daşnak qüvvələrinə yer yoxdur. Üstəlik, ölkənin rusun vassalına çevriblər, inkişaf getməyib. Bu gün Paşinyan real Ermənistan təklif edir. O baxımdan, seçkidə müxalifətin qələbəsi gözlənilmir. Hətta küçə hərəkatına ciddi dəstək gözləmirəm. Bundan əlavə, əgər müxalifət hakimiyyətə gəlsə belə 8 avqust razılaşmasını poza bilməz. O halda proses sıfırlanacaq və müharibə təhlükəsi yaranacaq. Köçəryanın Azərbaycanla döyüşməyə ordusunun gücü olacaqmı? O səbəbdən də belə bəyanatlar populist fikirlərdir və seçki ərəfəsində diqqəti cəlb etməyə hesablanıb".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

# Bakı ilə Moskva arasında "buzlar əriyir"? - dekabra qədər...

## Əliyevlə Putin Düşənbədə görüşə bilər

**Kremlin sözçüsü Dmitri Peskov Rusiya Prezidenti Vladimir Putinlə Azərbaycan Prezidenti İlham Əliyev arasında telefon danışığını vacib adlandırıb. "Həqiqətən telefon zəngi olub. Bu, vacibdir. Prezident Əliyev Prezident Putini ad günü münasibətilə təbrik edib. Hələlik bu günə bunu deyə bilərəm", - Peskov qeyd edib.**

Sabiq nazir Fikrət Yusifov TV Musavat-a diqqətçəkən şərh verib. Professorun fikrincə, bu zəng iki ölkə arasında son aylarda müşahidə olunan "soyuq müharibə" ab-havasının yumşalmasına təkan verə bilər: "Münasibətlərin normallaşması istiqamətində ilk addımı əslində Vladimir Putin atıb.

O, Çində keçirilən görüşlər zamanı ilk olaraq Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım, vitse-prezident Mehriban Əliyeva ilə təmas qurdu. Həmin görüşün özü, eləcə də Putinin ona verdiyi müsbət qiymət bu prosesin başlanğıc nöqtəsi oldu. İlham Əliyevin dünənki zəngi həmin jestə cavab xarakteri daşıyır".

Ekspertin proqnozuna görə, iki ölkə münasibətlərində dekabrın 25-dək, yəni Azərbaycan mülki təyyarəsinin Rusiya ərazisində vurulmasının ildönümünə qədər daha nəzərəçarpacaq yumşalma müşahidə oluna bilər.

İki ölkə arasında buzların əriməyə başladığını demək olarmı? Prezident Tacikistanda keçiriləcək MDB dövlət başçılarının qeyri-rəsmi sammitində iştirak edə bilərmi? Bu zəngdən sonra vurulan təyyarəmizlə bağlı Rusiya hansı addımı atacaq?

**"Alyans" Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan Prezidentinin Rusiya Prezidentini doğum günü münasibətilə zəng edib təbrik etməsi və bunun Rusiya tərəfindən ciddi vacib hadisə kimi qiymətləndirilməsi Rusiya-Azərbaycan münasibətlərində gərginliyin azalmasına şərait yarada bilər:** "Ancaq bunun üçün Rusiya müəyyən addımlar atmalıdır. MDB ölkələri başçılarının Düşənbədə keçiriləcək sammitində Azərbaycan Prezidenti İlham Əliyev çox güman ki, iştirak edəcək. Çünki Rusiya Prezidentinin köməkçisi Uşakov Putinlə İlham Əliyevin Düşənbədə görüşmək ehtimalının olduğunu deyib. Həmin görüşdən, Putinin səsləndirəcəyi bəyanatlardan çox şey asılı olacaq. Rusiya rəhbərinin düşünmək üçün kifayət qədər vaxtı oldu. Münasibətlərimizin əvvəlki səviyyəyə qayıtması üçün hansı addımların atılmalı olduğunu da Azərbaycan Prezidenti dəfələrlə deyib. Mülki təyyarəmizin vurulmasına görə üzr istənilməlidir, təzminat ödənilməlidir və günahkarlar cəzalandırılmalıdır. Düşənbə sammitindən sonra məlumdur ki, ilin sonunda təyyarənin vurulması ilə bağlı yekun rəy təqdim olunacaq və bu, Rusiyaya imkan verir ki, həmin o yekun rəy əsasında zəruri addımları atsın. Bundan sonra mən hesab edirəm ki, Azərbaycanla Rusiya arasında münasibətlərin yaxşılaşması ehtimalı ola bilər".

**Ekspertin sözlərinə görə, son hadisələr bir məsələni də aydın şəkildə göstərdi:** "Rusiyanın keçmiş ittifaq respublikalarına münasibəti, onlara yuxarıdan aşağı baxması, onların atdığı ən kiçik müstəqil addımı da narazılıqla qarşılaması və bugünkü müstəqil



dövlətlər barədə son dərəcə məsuliyyətsiz bəyanatların səsləndirilməsi göstərir ki, Rusiya-Azərbaycan münasibətləri gələcəkdə də bu cür böhranlar yaşaya bilər. Əgər bir ölkənin prezidenti öz missiyasının keçmiş "Rusiya torpaqlarını" toplamaqdan ibarət olduğunu deyirsə və SSRİ tərkibində olmuş respublikaları nəzərdə tutursa bu gün müstəqil olan həmin respublikaların Rusiyaya münasibəti necə ola bilər, belə bir qonşuya güvənmək olarmı. Ukraynada baş verən hadisələrdən sonra Rusiyanı normal qonşu saymaq mümkünmü. Qazaxıstana göstərilən münasibət, taciklərin, özbəklərin ünvanına səslənən bəyanatlar hamımızı narahat edir. Bu ilk növbədə Rusiyanı narahat eləməlidir. Rusiya-Ukrayna müharibəsi də göstərdi ki, Rusiya-Ukraynadan fərqli olaraq meydanda tək qaldı. Ukraynanı 50-dən artıq dövlət dəstəklədi. Amma Rusiyanın yanında heç kim olmadı. Hətta Belarus da Şimali Koreyanın, İranın göstərdiyi səviyyədə Rusiyaya yardım göstərmədi. Rusiya bundan nəticə çıxarmalıdır. Rusiya dəyişməlidir. Rusiya dövlətlərin müstəqilliyini, onların müstəqil siyasət yeritmək hüququnu tanımalıdır, anlamalıdır və normal qonşu olmağı bacarmalıdır. Əks halda, Rusiya ilə qonşular arasında böhranlar bundan sonra da olacaq və qonşular ilk növbədə özlərini Rusiyadan necə qorumaq barədə düşünəcəklər".

**Politoloq Azad Məsiyev bildirdi ki, Azərbaycan Prezidentinin Rusiya Prezidentinə doğum günündə zəng edib təbrik eləməsi gözlənilən idi:** "Bu zəng bir daha göstərdi ki, Vladimir Putinlə İlham Əliyevin şəxsi münasibətlərinin qırılmasını istəyən, buna çalışan qüvvələr istəklərinə nail ola bilməyiblər və nail ola bilməyəcəklər. Dmitri Peskovun İlham Əliyevin zəngini vacib zəng adlandırması Azərbaycan liderinə yüksək münasibətin göstəricisidir. Mən indiyə qədər bir neçə də dəfə bəyan etmişdim ki, Rusiyada müəyyən dairələr Azərbaycanla Rusiya arasında münasibətlərin düşmənçilik həddinə çatmasında maraqlıdırlar və buna çalışırlar. Həmin qüvvələrin əslində Vladimir Putinə və Rusiya maraqlarına da qarşı olduğunu da əminliklə söyləmək olar. Putinin Azərbaycana, Prezident İlham Əliyevə münasibətini dəyişməyə çalışanlar istəklərinə nail ola bilməzlər. Yəqin ki, MDB dövlət başçılarının Düşənbə sammitində İlham Əliyevlə Vladimir Putin arasında görüş olacaq və dostluq münasibətləri üzərində danışıqlar keçiriləcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Ukrayna savaşına koronavirus səbəb olub? - şok iddia, soyuq şərh



**Almaniyanın keçmiş kansleri, Avropanın ən nüfuzlu siyasətçilərindən biri olan Angela Merkel Ukrayna müharibəsi ilə bağlı dünya gündəmini silkələyən açıqlama verib. Merkelin sözlərinə görə, Rusiya ilə Ukrayna arasında hərbi toqquşmanın alovlanmasında koronavirus pandemiyası mühüm rol oynayıb.**

Sabiq kansler bu barədə Macarıstanın "Partizan" YouTube kanalına verdiyi səmimi müsahibəsində danışıb. O bildirib ki, pandemiya dövründə Avropa İttifaqı liderləri ilə Rusiya Prezidenti Vladimir Putin arasında birbaşa diplomatik təmasların kəsilməsi siyasi münasibətləri iflic vəziyyətinə salıb.

"Əgər görüşə bilmirsinizsə, fikir ayrılıqlarınızı üz-üzə müzakirə edə bilmirsinizsə, yeni kompromislər də tapmaq mümkün olmur. Pandemiya bizi təcrid etdi, bu təcrid isə qarşılıqlı anlaşmanı məhv etdi", - deyə Merkel vurğulayıb.

Merkelin bu fikri bir çox beynəlxalq dairələrdə "tarixi etiraf" kimi qiymətləndirilib. Çünki ilk dəfədir ki, yüksək səviyyəli bir Qərb lideri pandemiyanın siyasi nəticələrini bu qədər açıq şəkildə etiraf edir.

Xatırladaq ki, bir qədər öncə Serbiya Prezidenti Aleksandr Vuçiç də bənzər fikirlə çıxış etmişdi. O demişdi ki, əgər Merkel vəzifəsində qalardısa, Ukrayna müharibəsi baş verməzdi.

Bəs doğrudanmı bu iddia həqiqətə uyğundur? Doğrudanmı koronavirus pandemiyası diplomatik əlaqələri iflic edərək Rusiyanın Ukraynaya təcavüzünü sürətləndirib?

Ən əsası - Merkel hakimiyyətdə qalsaydı, bu müharibə baş verməyə bilərdimi?

Siyasətçilərin və ekspertlərin fikrincə, bu sualların cavabı bir qədər mürəkkəbdir. Pandemiya, doğrudan da, beynəlxalq siyasətdə "buz dövrü" yaratdı: dövlət başçıları bir-birindən təcrid olundu, emosional diplomatiya yerini onlayn danışıqlara verdi. Amma Putinin Ukrayna ilə bağlı strateji planları daha əvvəldən mövcud idi. Merkelin şəxsiyyəti və təcrübəsi isə bəlkə də bu planların icrasını gecikdirə, lakin tamamilə önləyə bilməzdi.

Bütün hallarda Merkelin bu fikri Avropa diplomatiyasının pandemiyadan aldığı dərsi bir daha gündəmə gətirir: izolyasiya bəzən təkcə sağlamlığı deyil, sülhü də məhv edə bilər.

Mövzu ilə bağlı **politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a danışıb. Politoloq qeyd edir ki, Almaniyanın keçmiş kansleri Angela Merkelin fikirləri ilə razılaşmaq çətindir. Politoloqun fikrincə, Merkelin gətirdiyi bu əsaslar məntiqli də deyil: "Birincisi, Merkel deyir ki, koronavirus insanlar arasında ünsiyyəti dayandırdı, liderlər də görüşmürdülər. Guya əgər bu görüşlər baş tutsaydı, Putin müharibəyə başlamazdı. Yəni o, bu cür nəticə çıxarır. Amma ona qalsa, Putin liderlərlə, elə Merkelin özü ilə də bir neçə dəfə görüşmüşdü. Makronun özü də Moskvaya getmişdi. Yəni Putini bu cür görüşlər onsuz da dayandırmayacaqdı.

2014-cü ildə koronavirus yox idi, bəs onda niyə Krımı ilhaq etdi? Axı o vaxt da görüşlər olurdu, Putinlə danışıqlar aparılırdı. Ona görə də bu iddianın doğru olduğuna inanmaq çətindir. Putinin öz planı vardı, artıq o, Krımı ilhaq etmək, Ukraynanı parçalamaq istəyirdi və sadəcə, məqam gözləyirdi. Həmin məqam da o idi ki, Putin bəhanə tapdı, guya Ukraynada çevriliş olub, guya rusları qorumaq, NATO-dan müdafiə olunmaq zəruridir. Beləcə, Ukraynaya hücum etdi və Krımı ilhaq etdi. Yəni bunun koronavirusla, mənim fikrimcə, yaxın-dan-uzaqdan heç bir əlaqəsi yoxdur".

**Elxan Şahinoğlu həmçinin qeyd edib ki, Serbiya Prezidentinin fikri də bir qədər suallar doğurur:** "Guya Merkel hakimiyyətdə olsaydı, Ukraynaya qarşı savaş başlamazdı. Bu, bir növ Trampın açıqlamalarına bənzəyir. Tramp az qala hər həftə eyni bəyanatı verir ki, "mən prezident olsaydım, bu müharibənin başlanmasına icazə verməzdim". Yəni bu cür fikirlər nə qədər mübahisə doğurursa, Vuçiçin "Merkel olsaydı, müharibə başlamazdı" fikri də bir o qədər şübhə yaradır. Çünki Putin onsuz da heç kimlə hesablaşmır.

Alyaskadakı görüşlərdə də ümid edilirdi ki, Putin ən azından atəşkəs elan edəcək. Etdimi? Əlbəttə ki, xeyr. Əksinə, Trampla görüşdən sonra müharibə daha da genişləndi, Putin işğal etdiyi əraziləri daha da böyütməyə çalışdı, Kiyev və digər şəhərlərin bombalanması intensivləşdi. Mən əksinə düşünürəm: Merkelin o dövrdə Rusiyaya qarşı yumşaq siyasəti Putini daha da cəsarətləndirdi. Hətta müharibə dönəmində belə Almaniya Rusiyadan qaz almaqda davam edirdi.

Beləliklə, Merkelin guya bu münaqişənin qarşısını ala biləcəyi fikirləri, məncə, olduqca şişirdilib".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

Yeni Müsavat
N 182 (8792) 9 oktyabr 2025

# Azərbaycanda kredit kartlarının sayı azalıb, əhali ehtiyaclarını necə ödəyir?

**Azərbaycanda kredit kartlarının sayı azalıb. Azərbaycan Mərkəzi Bankının açıqladığı statistikaya əsasən kredit kartlarının sayı iyuldakı 2 milyon 223 min ədəddən avqust ayında 2 milyon 123 minə qədər azalıb. Ötən ilin eyni dövründə kredit kartlarının sayı 2 milyon 282 min ədəd olub. Bu, aylıq ifadədə 4.5 faiz, illik ifadədə isə 7 faiz azalma deməkdir.**



Kredit kartları ilə həyata keçirilən əməliyyatların sayı ötən ilin avqustunda 13017-yə, bu ilin iyulunda 14151-ə, avqustda isə 13075-ə bərabər olub. Bu isə aylıq 7,6 faiz azalma, illik ifadədə isə 0,5 faiz artımdır.

2025-ci ilin yanvar-avqust ayları ərzində kredit kartları ilə aparılan əməliyyatların həcmi 6 milyard 488 milyon manat təşkil edib. Bu göstərici isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 18.5 faiz və ya 1 milyard 13 milyon manat artıb. Hesabat dövründə kredit kartları ilə aparılan əməliyyatların 3 milyard 785 milyon manatı elektron ticarət, 1 milyard 449 milyon manatı POS-terminallar, 1 milyard 16 milyon manatı bankomatlar, 238 milyon manatı isə xaricdə aparılan əməliyyatlar vasitəsilə həyata keçirilib.

Kredit kartları ilə həyata keçirilən əməliyyatlar zamanı xərclənən vəsaitlərin həcmi ötən ilin avqustunda 751 milyon manat, bu ilin iyulunda 806 milyon manat, avqustda isə 739 milyon manat təşkil edib. Bu vəsaitlərin ötən ilin avqustunda 421 milyon manatı, bu ilin iyulunda 463 milyon manatı, avqustda isə 419 milyon manatı elektron ticarət əməliyyatlarıdır. Elektron ticarət əməliyyatlarında bir qayda olaraq mobil telefonlar, məişət cihazları və sair məhsulların kreditlə alışı üstünlük təşkil edir. Bu isə o deməkdir ki, əhalinin kreditlə belə məhsulları almaq imkanları məhdudlaşıb.

Qeyd edək ki, Mərkəzi Bank kredit kartlarının sayının, həmçinin onlarla borclanmanın artmasını mənfi tendensiya kimi qiymətləndirir. Tənzimləyici bildirir ki, kredit kartları ilə borclanma istehlak kreditlərinin artımına gətirib çıxarır. AMB bildirir ki, aparılan təhlillər nəticəsində, son dövrlərdə istehlak kredit portfelinin artımının əsas drayverinin kredit kartları olduğu müşahidə olunub: “Belə ki, 2022-ci ilin sonu ilə müqayisədə istehlak kredit portfeli 55 faiz artdığı halda, kredit kartlarının istifadə olunmuş hissəsi 89 faiz artıb. Əlavə olaraq kredit kartlarının sayının artımı fonunda kredit kartları ilə aparılan əməliyyatların həcmi son 3 ildə 2.5 dəfədən çox artıb. Qeyd olunmalıdır ki, bu tendensiya əhalinin borc yükünün sərəncamda qalan gəlirdə payının artımı ilə də müşayiət olunub. Belə ki, 2024-cü ilin sonu ilə müqayisədə əhalinin sərəncamda qalan gəlirləri 7 faiz artdığı halda, kredit kartlarının istifadə olunmuş hissəsi 17 faiz artıb”.

**AMB-yə görə, inflyasiyanı artıra biləcək əsas daxili risk faktoru xərc amillərinin aktivləşməsi və məcmu tələbin izafi artımı qeyd oluna bilər:** “Bu baxımdan ortamüddətli perspektivdə dövlət xərclərinin və istehlak kreditlərinin məcmu tələbə və qiymətlərə mümkün təsirləri daim diqqətdə saxlanılmalıdır”.

Tənzimləyicinin hesablamalarına əsasən, istehlak kreditlərinin həcminin 10 faiz artımı ölkədə inflyasiyanı 0,34 faiz artırır. AMB-nin proqnozuna görə, bu ilin sonuna Azərbaycanda istehlak kredit portfelinin artımı 13 faiz ətrafında olacaq. Bu isə inflyasiyaya, ev təsərrüfatlarının istehlakı vasitəsi ilə 0.43 faiz bəndi artırıcı təsir göstərəcək. 2026-ci ildə isə istehlak kredit portfelinin artımı 16 faiz artıma ətrafında olacaq, bu da inflyasiyaya 0.56 faiz bəndi artırıcı təsir edəcək.

**İstehlak kreditlərinin artımı əhalinin borc yükünün gəlirlərindəki payını da artırır**: “Əhalinin sərəncamda qalan gəlirlərində müsbət artım dinamikası müşahidə edilsə də, əhalinin borc yükünün sərəncamda qalan gəlirdə payının artımı müşahidə edilir. Belə ki, bu ilin birinci yarısında əhalinin borc yükünün sərəncamda qalan gəlirlərinə nisbəti ötən ilin sonu ilə müqayisədə 0.5 faiz bəndi artaraq 18.5 faiz olub”.

Əhalinin borc yükü dedikdə, fiziki şəxslərin kredit təşkilatları (Bank, BOKT) qarşısında istehlak və ipoteka kreditlərinin qalıq məbləğinin cəmi nəzərdə tutulur.

**Buna görə də Mərkəzi Bank istehlak kreditlərinin artımını cilovlamaq üçün bu ilin ortasında istehlak kredit kartları üzrə tənzimləmələrə dəyişiklik edib. Qurumdan bildirildiyinə görə, Mərkəzi Bankın həyata keçirdiyi makroprudensial siyasət istehlak portfelinin dayanıqlı artımı və əhalinin sağlam borclanmasına yönəlib:** “Mərkəzi Bank istehlak kreditləşməsinin dinamikası və əhalinin izafi borclanması üzrə qiymətləndirmələrini və bu istiqamətdə requlyativ çərçivənin daha da təkmilləşdirilməsi üzrə fəaliyyətini davam etdirir. İstehlak kreditləşməsinin əsas drayverlərindən biri də kredit kartlarıdır. Son dövrlər istehlak krediti seqmentində kredit kartları üzrə yüksək artım tempi müşahidə olunur. Belə ki, 2022-ci ilin sonu ilə müqayisədə istehlak kredit kartlarının istifadə olunmuş hissəsi 60 faiz artaraq 1.7 milyard manata, istifadə olunmamış hissəsi isə 64 faiz artaraq 2 milyard manata çatıb. İstehlak kredit kartlarının pro-tsiklik xüsusiyyəti sistem risklərini artıran amil kimi çıxış etməklə yanaşı, maliyyə sistemi üzrə bir sıra risklər yaradır. Əhalinin izafi borclanmasının qarşısının alınması və bank sisteminin kapital dayanıqlığının təmin etmək məqsədilə Mərkəzi Bank tərəfindən istehlak kredit kartları üzrə requlyativ çərçivəyə dəyişiklik edilib. Dəyişikliklərə əsasən, borcalanın kredit kartı onun xalis vergidən sonrakı gəlirinin maksimum 5 misli ilə məhdudlaşdırılıb. Bu, əhalinin istehlak kredit kartları üzrə borclanma imkanlarını müəyyən etdikdə borcalanların real ödəmə qabiliyyətini əks etdirən maliyyə göstəricilərini nəzərə almağa və banklar tərəfindən risklərin daha erkən mərhələdə tanıyaraq minimallaşdırmağa imkan verəcək”.

Göründüyü kimi, Mərkəzi Bankın atdığı addımlar kredit kartları ilə bağlı gözlənilən nəticəni verməkdədir. Lakin bu proses ölkədə ümumi istehlak kreditlərində digər portfellərlə müqayisədə daha sürətli artımın qarşısını ala bilməyib. Rəsmi məlumata görə, sentyabrın 1-nə ölkə banklarının kredit portfeli 28 milyard 704,9 milyon manat təşkil edib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 2 milyard 629,3 milyon manat, yəni 10,1 faiz, aylıq müqayisədə isə 206,7 milyon manat və ya 0,7 faiz artıb.

Portfelin əsas hissəsini təşkil edən biznes kreditlərinin həcmi 15 milyard 91,8 milyon manata çatıb. Bu, illik müqayisədə 1 milyard 92,0 milyon manat, və ya 7,8 faiz, aylıq müqayisədə isə 36,0 milyon manat, və ya 0,2 faiz artım deməkdir.

İstehlak kreditləri portfeli 9 milyard 114,5 milyon manat olub. Bu göstərici illik müqayisədə 1 milyard 135,7 milyon manat, və ya 14,2 faiz, son bir ayda isə 112,3 milyon manat, və ya 1,2 faiz artıb.

İpoteka kreditlərinin həcmində də artım davam edir. Bu portfel 4 milyard 498,6 milyon manata çatıb ki, bu da illik müqayisədə 401,6 milyon manat və ya 9,8 faiz, aylıq müqayisədə isə 58,4 milyon manat, və ya 1,3 faiz artım deməkdir.

Bu statistika göstərir ki, kredit portfelinin strukturunda ən yüksək artım elə faizləri də ən yüksək olan istehlak kreditlərində qeydə alınıb. Bu da ölkə üzrə ümumi kredit faizlərinə artırıcı təsirini göstərir.

Kredit portfeli, xüsusilə istehlak kreditlərindəki yüksəliş problemli kreditləri də artırır. 2025-ci ilin sentyabrın 1-nə Azərbaycanda kredit təşkilatlarının cəmi kredit portfelində vaxtı keçmiş kreditlərin həcmi 530,9 milyon manat təşkil edib. Vaxtı keçmiş kreditlərin ümumi həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 57,8 milyon manat və ya yəni 12,2 faiz, aylıq müqayisədə isə 1,5 milyon manat və ya 0,3 faiz artıb.

Diqqətçəkici fakt budur ki, problemli kreditlərin artımı tamamilə faizləri sürətlə artan milli valyutadakı kreditlərin hesabına baş verib. Belə ki, manatla vaxtı keçmiş kreditlərin ümumi həcmi 434,3 milyon manata çatıb. Bu, illik müqayisədə 65,3 milyon manat (17,7 faiz), son bir ayda isə 0,7 milyon manat (0,2 faiz) artım deməkdir.

Manatla problemli kreditlərin artımında onların faizinin daha yüksək olması da ciddi rol oynayır. AMB-nin məlumatına əsasən 2025-ci il sentyabrın 1-nə milli valyutada yeni kreditlər üzrə orta illik faiz dərəcəsi 18,52 faiz təşkil edib. Bu, o deməkdir ki, ilin əvvəli ilə müqayisədə manatla yeni kreditlər üzrə orta dərəcələr 1,96 faiz artıb.

Beləliklə, aydın görünür ki, Mərkəzi Bankın istehlak kreditlərinin artımına qarşı yönəlmiş addımları müəyyən müsbət nəticələr verir. Lakin bu, ümumilikdə istehlak kreditlərinin payının azalmasına hələlik gətirib çıxarmayıb. Bunun da bir sıra səbəbləri var, onların arasında ən mühüm olanı əhalinin tələbatının yüksək olmasıdır. Gəlirlərin real artımının dayanması insanları getdikcə öz ehtiyaclarının daha çox hissəsini kredit hesabına qarşılamaq məcburiyyətində qoyur.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 182 (8792) 9 oktyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

# Gənclərin 82 faizi özünü milli dəyərlərə sadiq hesab edir

Ekspertə görə, vətənpərvərlik tərbiyəsi təkcə məktəblərdə deyil, media, ailə və sosial platformalarda da kompleks şəkildə həyata keçirilməlidir

**"Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi yalnız ideoloji bir vəzifə deyil, dövlətin sosial-siyasi sabitliyinin, milli təhlükəsizliyinin və mədəni davamlılığının əsas dayağıdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər təhsil, mədəniyyət və informasiya siyasətinin kəsişməsində mühüm strateji əhəmiyyət daşıyır".**




Bu fikirləri "Yeni Müsavat"a açıqlamasında **təhsil eksperti Kamran Əsədov** müasir dövrdə gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi ilə bağlı danışarkən deyib.

O qeyd edib ki, müasir dövrdə informasiya axınının, qlobal mədəni təsirlərin artması fonunda milli kimliyin qorunması və gənclərdə vətənpərvərlik hissinin formalaşdırılması hər zamankından daha aktualdır: "Elm və Təhsil Nazirliyinin bu sahədə apardığı işlər göstərir ki, təhsil sistemi artıq yalnız bilik ötürən struktur deyil, həm də milli-mənəvi kimlik və vətəndaşlıq məsuliyyətini formalaşdıran sosial institut rolunu daşıyır.

Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununun 4-cü maddəsində təhsilin əsas prinsipləri sırasında milli-mənəvi və ümumbəşəri dəyərlər əsasında vətənpərvər, dövlətçilik ruhunda şəxsiyyət formalaşdırmaq məqsədi göstərilir. Həmçinin "Gənclər siyasəti haqqında" Qanunun 2.1-ci maddəsində qeyd olunur ki, dövlət gənclərin milli-mənəvi dəyərlərə sadiqliyini və vətənpərvərlik hisslərini inkişaf etdirməyi prioritet istiqamət kimi müəyyən edir. Bu müddəalar göstərir ki, vətənpərvərlik tərbiyəsi təkcə ideoloji deyil, həm də hüquqi və strateji zərurətdir. Eyni zamanda "Azərbaycan Respublikasında dövlət gənclər siyasəti Konsepsiyası"nda da qeyd olunur ki, gənclər arasında milli özünüdərk və dövlətçilik ənənələrinə hörmət dövlətin dayanıqlı inkişafının əsas şərtidir.

Statistik göstəricilər bu sahədə müəyyən irəliləyişlərin olduğunu sübut edir. 2024-cü ildə apardığım tədqiqat sorğusuna əsasən, gənclərin 82 faizi özünü milli dəyərlərə sadiq hesab edir, 75 faizi isə vətən uğrunda xidmət etməyi mənəvi borc sayır. Son beş ildə təhsil müəssisələrində keçirilən "Vətənpərvərlik aylığı", "Zəfər dərsləri", "Şəhidləri tanı, tarixini öyrən" kimi tədbirlərdə 1 milyondan çox şagird və tələbə iştirak edib. Bu, Elm və Təhsil Nazirliyinin ideoloji tərbiyə işinə sistemli yanaşmasının nəticəsidir. Nazirliyin 2023-cü ildən tətbiq etdiyi "Milli və mənəvi dəyərlər" modulu və məktəblərdə "Vətən tarixi" fənninin tədrisində yeniliklər gənclərin milli şüurunun möhkəmlənməsinə real təsir göstərib.

Təhlil göstərir ki, vətənpərvərlik tərbiyəsi yalnız dərs proqramları ilə məhdudlaşmamalıdır. Bu proses emosional bağlılıq, davranış formalaşdırma və dəyərlərin yaşanması ilə tamamlanmalıdır. Elm və Təhsil Nazirliyi bu istiqamətdə bir sıra müsbət addımlar atıb. Məktəblərdə "Zəfər dərsləri"nin keçirilməsi, şəhid ailələrinin iştirakı ilə görüşlərin təşkili, "Vətənə xidmət" könüllülük hərəkatlarının genişləndirilməsi gənclərin emosional-mənəvi inkişafına mühüm töhfə verir. Eyni zamanda "STEAM və vətənpərvərlik" layihəsi texnologiya ilə milli dəyərləri birləşdirən yeni tərbiyə modelinin formalaşmasına yol açıb. Bu, həm XXI əsrin bacarıqlarını, həm də milli kimliyi eyni müstəviyə gətirən uğurlu yanaşmadır və Elm və Təhsil Nazirliyinin innovativ idarəetmə yanaşmasının nümunəsidir".

**Ekspert beynəlxalq təcrübəyə diqqət çəkərək deyib:** "Beynəlxalq təcrübə ilə müqayisədə Azərbaycan bu istiqamətdə regional liderlərdən biridir. Məsələn, Türkiyədə "Milli Kültür Şuuru" proqramı məktəblərdə milli kimlik və dövlətçilik şüurunun sistemli tədrisini təmin edir. Yaponiya "kokoro no kyoiku" adlanan mənəvi tərbiyə proqramı vasitəsilə gənclərə həm mədəni irs, həm də ictimai məsuliyyət hissini aşılayır. Estoniyada isə "civic education" fənni və "digital citizenship" modulları vətənpərvərlik anlayışını müasir texnologiya ilə birləşdirir. Azərbaycanın "Tərbiyə Konsepsiyası" sənədində göstərilən vətəndaşlıq tərbiyəsi, dövlətçilik ruhu və şəhidlik anlayışının tədris mühitinə inteqrasiyası bu modellərlə uyğunluq təşkil edir və beynəlxalq səviyyədə milli özünüdərkin qorunması baxımından mühüm təcrübədir.

Müsbət tərəf ondan ibarətdir ki, Elm və Təhsil Nazirliyi bu sahəyə yanaşmada formal ideoloji üsullardan uzaqlaşıb, pedaqoji və sosial psixoloji yanaşmalara üstünlük verir. Artıq vətənpərvərlik təkcə şüar səviyyəsində deyil, məktəb həyatının bir hissəsi kimi formalaşır. Şagirdlər layihələrdə, debatlarda, ictimai aksiyalarda və sosial fəaliyyətlərdə öz vətənpərvərlik hissini praktik şəkildə nümayiş etdirirlər. Təhsil proqramlarında milli qəhrəmanlarımızın, şəhidlərimizin və tarixi şəxsiyyətlərin həyat yolu öyrədilir, bu isə gənclərin dəyərlər sistemini möhkəmləndirir. Lakin mənfi tərəf kimi göstərilə bilər ki, bəzi təhsil müəssisələrində bu iş daha çox formal xarakter daşıyır. Müəllimlərin bu sahədə metodiki hazırlığı, psixoloji yanaşması bəzən yetərli deyil. Gənclərin sosial mediada qlobal mədəniyyətin təsirinə məruz qalması, milli dəyərlərlə bağlı informasiya balansının pozulması real təhlükə yaradır. Bu baxımdan vətənpərvərlik tərbiyəsi yalnız məktəblərdə deyil, media, ailə və sosial platformalarda da kompleks şəkildə həyata keçirilməlidir".

**K.Əsədov hesab edir ki, gələcəkdə bu istiqamətdə daha sistemli tədbirlər görülməlidir:** "Birincisi, təhsil müəssisələrində "Vətəndaşlıq və milli kimlik" fənninin təkmilləşdirilməsi və bütün tədris pillələrinə inteqrasiyası vacibdir. İkincisi, müəllimlər üçün milli tərbiyə üzrə ixtisasartırma proqramları gücləndirilməli, tərbiyəvi layihələrin qiymətləndirmə meyarları hazırlanmalıdır. Üçüncüsü, region məktəblərində gənclərin vətənpərvərlik fəaliyyətlərinə dövlət dəstəyi artırılmalı, müasir texnologiya və mədəniyyət vasitələri ilə milli ideyaların təbliği həyata keçirilməlidir. Proqnozlara görə, 2030-cu ilə qədər həyata keçirilən tədbirlər nəticəsində gənclərin milli kimliyə bağlılığı daha da güclənəcək. Bu, cəmiyyətdə dövlətçilik ideologiyasının möhkəmlənməsi, milli həmrəyliyin artması və vətəndaş məsuliyyətinin dərinləşməsi ilə müşayiət olunacaq. Elm və Təhsil Nazirliyinin strateji və koordinasiyalı fəaliyyəti bu prosesdə həlledici rol oynayacaq. Nazirlik təhsil vasitəsilə vətənpərvərlik tərbiyəsini yalnız milli borc deyil, həm də şəxsiyyətin mənəvi kamilliyinin tərkib hissəsi kimi formalaşdırmaqdadır. Hesab edirəm ki, gənc nəslin milli mənlik şüurunun inkişafı və vətənpərvərlik tərbiyəsi sahəsində həyata keçirilən siyasət Azərbaycanın milli ideoloji xəttinin təməl sütunlarından biridir. Elm və Təhsil Nazirliyinin bu istiqamətdə gördüyü məqsədyönlü və sistemli işlər dövlətin uzunmüddətli dayanıqlılıq strategiyasına xidmət edir. Perspektiv baxımdan bu siyasətin təkmilləşdirilməsi, rəqəmsal və mədəni platformalarda yeni pedaqoji yanaşmaların tətbiqi, gənclərin təhsildə və sosial həyatda milli kimliyini daha dərindən yaşamasına imkan yaradacaq. Bu, həm də Azərbaycan gəncliyinin gələcək nəsillər üçün milli şüurun və dövlətçilik dəyərlərinin daşıyıcısına çevrilməsini təmin edəcək".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ**

# Qürur, səbir və zəfərin simvolu - Ağdamda da həyat yenidən doğulur



**İşğaldan azad olunmuş Ağdamda genişmiqyaslı bərpa və quruculuq işləri davam edir. 30 ilə yaxın düşmən tapdağı altında qalan, "Qarabağın Xirosiması" adlandırılan şəhər bu gün dirçəlişin, yenidənqurmanın rəmzinə çevrilib.**

Azərbaycan hökuməti tərəfindən həyata keçirilən layihələr çərçivəsində Ağdamda infrastruktur tamamilə yenidən qurulur, yaşayış və sosial obyektlər tikilir, müasir şəhərcik salınır. Artıq bir neçə küçə boyunca asfaltlanma işləri yekunlaşıb, içməli su, kanalizasiya və elektrik xətləri çəkilib.

Musavat.com xəbər verir ki, Ağdam şəhərinin Baş planı Prezident İlham Əliyevin 2021-ci ilin mayında imzaladığı sərəncama əsasən hazırlanıb. Şəhər "ağıllı şəhər" və "yaşıl enerji" konsepsiyasına uyğun formalaşdırılır. Yeni enerji infrastrukturu günəş və külək mənbələrindən istifadəni nəzərdə tutur.

Hazırda Ağdamda həm də sənaye zonası sürətlə formalaşır. "Ağdam Sənaye Parkı"nda artıq bir sıra yerli və xarici şirkətlər fəaliyyətə başlamaq üçün müqavilələr imzalayıb. Parkda inşa olunan müəssisələr regionda yeni iş yerlərinin açılmasına, iqtisadi canlanmaya təkan verəcək.

Ağdamda aparılan quruculuq işləri təkcə şəhərin fiziki dirçəlişini deyil, həm də mənəvi dirçəlişini ifadə edir. İllər sonra doğma yurduna dönəcək insanlar üçün yeni evlər, yeni imkanlar yaradılır. Bu gün Ağdam torpağı hər bir azərbaycanlı üçün qürur, səbir və zəfərin simvoludur. İşğalın izlərini silən, dağıntılar üzərində yeni həyat quran bu şəhər Qarabağın gələcəyinə işıq saçır.

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**



## Bakıda tərbiyəçi vəzifəsi üzrə müsahibələr başlayır

**Oktyabrın 8-dən etibarən Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyində fəaliyyət göstərən internat tipli ümumi təhsil müəssisələrinə tərbiyəçi vəzifəsinə işə qəbul müsahibəsinə start verilib.**

Bu barədə Oxu.az-a BŞTİ-dən məlumat verilib.

Bildirilib ki, müsahibənin keçirildiyi məkan və vaxt barədə məlumat namizədlərin qeydiyyatdan keçdikləri mobil nömrəyə SMS vasitəsilə göndərilib.

Qeyd edək ki, müsahibə zamanı namizədlərin müvafiq sahə üzrə bilik və bacarıqları yoxlanılacaq.




# Qalyamov: "Kreml "mühafizəkar xaç yürüşünə" qoşula bilər

**Moskva uzunmüddətli qarşıdurmanı davam etdirməyə gücü çatmadığını anlayaraq, yaxın gələcəkdə öz strateji kursunu dəyişə bilər.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə Rusiya siyasi analitiki Abbas Qalyamov yazdığı məqaləsində bildirir.

Onun fikrincə, Kreml Qərbə qarşı müharibə ritorikasından imtina edib, Qərbin liberal qüvvələrinə qarşı mübarizə aparan mühafizəkar düşərgənin bir hissəsinə çevrilmək yolunu seçə bilər.

Qalyamov qeyd edir ki, "Rusiya nə qədər uzun müddət Qərbə qarşı müharibə vəziyyətində qalsa, bir o qədər daxili cəhətdən zəifləyəcək". İqtisadi göstəricilərin geriləməsi, həyat səviyyəsinin enməsi və cəmiyyətin artan yorğunluğu Kremlin yeni reallığı dərk etməsini labüd edir.

"Əgər Kreml düşmən kimi bütöv Qərbi deyil, oradakı mənasız həddə çatmış liberal-proqressivizmi hədəf seçsə, Avropa və Amerikanın yarısını potensial müttəfiqə çevirə bilər. ABŞ və Avropadakı sağçıların "solçulara", tolerantlığa və siyasi korrektliyə qarşı yürüdüyü xaç yürüşünə qoşulmaq Rusiyanın üzərinə olan təzyiqi azalda bilər", - deyə Qalyamov yazır.

**Rusiyalı politoloq hesab edir ki, bu ideoloji "yenidən proqramlaşdırma" yalnız Ukraynada müharibənin dayandırılması ilə mümkündür:** "Kiyevə qarşı hərbi əməliyyatlar dayandırılmalıdır. Ukrayna mövzusu gündəmdən çıxarsa, Tramp və Vens Putini "öz adamı" kimi qəbul edər, o, yenidən Le Pen, Salvini, Faraj və digər Avropa sağçılarının əl sıxacağı fiqura çevrilər".

Qalyamovun qənaətinə görə, Kreml üçün yeni ideoloji konsepsiya - "dünyanı yenidən qurmaq istəyən neo-bolşeviklərə qarşı bəşəriyyəti xilas etmək" - artıq postsovet məkanında güc nümayiş etdirməkdən daha "böyük və şərəfli missiya" kimi təqdim edilə bilər.

Beləliklə, Qalyamovun fikrincə, Putin Qərbə qarşı "qalib" deyil, "xilaskar" obrazını formalaşdırmağa cəhd göstərə bilər - bu isə həm ölkə daxilindəki yorğunluğu azaltmaq, həm də beynəlxalq təcriddən çıxmaq üçün Kremlin ən real çıxış yolu kimi görünür.

❑ "Yeni Musavat"

# Rusiyanın keçmiş ali hakiminin adı yarım milyardlıq vergi qalmaqalında

**Rusiya Baş Prokurorluğu Ali Məhkəmənin sabiq sədr müavini və Rusiya Hakimlər Şurasının keçmiş rəhbəri Viktor Momotovun qanunsuz fəaliyyətlərə himayədarlıq etdiyini və dövlətə böyük həcmdə maddi zərər vurduğunu açıqlayıb.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, Moskvanın Ostankino rayon məhkəməsində Momotov və onun tərəfdaşlarının əmlakının müsadirəsi üzrə məhkəmə prosesi davam edir. Məhkəmədə dövlətin xeyrinə təhvil verilməsi tələb olunan əmlaka təxminən 100 daşınmaz obyekti əhatə edir. Buraya "Marton" hotellər şəbəkəsinə aid 8 hotel daxildir. Prokurorluğun iddiasına görə, Momotov hakim statusundan istifadə edərək, ortaqlarının torpaq sahələri əldə etməsi üçün qanunsuz məhkəmə qərarlarının qəbuluna şərait yaradıb.

İttiham aktında sabiq yüksək vəzifəli məmur həmçinin qeyri-qanuni fəaliyyətləri - saatlıq otaq icarəsi, saun xidmətləri və intim xidmətlərin təşkili - ört-basdır etməkdə günahlandırılır. Bundan başqa, o, biznesi bölərək vergidən yayınmaqda ittiham edilir. Ümumi zərərin 500 milyon rubldan çox olduğu bildirilir.

Hazırda Momotov barəsində cinayət işi açılmayıb - keçmiş hakimin məsuliyyətə cəlb olunması üçün İstintaq Komitəsi sədrinin sanksiyası tələb olunur. Lakin onunla əlaqəli şəxslər artıq həbs olunaraq istintaq təcridxanasında saxlanılır.

❑ "Yeni Musavat"

# Bakı İrəvana əlavə şərt qoyub? - Mirzoyan ziddiyyətli danışdı

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Polşanın TVP World telekanalına müsahibəsində Ermənistan-Azərbaycan münasibətləri, Vaşinqtonda imzalanmış bəyannamə, sülh müqaviləsi və regionda baş verən dəyişikliklər barədə danışıb. Nazir bir sıra diqqətçəkən məqamlara toxunub və Azərbaycanla bağlı növbəti dəfə manipulyativ bəyanatlar səsləndirib.**

Mirzoyan iddia edib ki, guya sülh müqaviləsinin imzalanmasına hazırdırlar, lakin Azərbaycan əlavə şərtlər irəli sürür: "Biz bununla razı deyilik. Ancaq proses imza mərhələsini gözləmədən də davam edir. Məsələn, biz artıq birlikdə ATƏT strukturlarına müraciət etmişik ki, Minsk prosesi bağlansın".

Mirzoyanın bu mövzuya avqustun 8-dən sonra ilk dəfə məhz indi toxunması təsadüfi deyil. Həmin tarixdən sonra Brüssel və Moskva xəttində diplomatik fəallıq artıb, ABŞ Dövlət Departamenti isə həm Bakıya, həm də İrəvana sülhün "son fürsət" olduğunu açıq şəkildə bildirib. Görünür, Mirzoyanın açıqlaması Qərbə loyal görünmək və Ermənistanın "konstruktiv tərəf" obrazını qorumaq cəhdidir. Amma bu, eyni zamanda Vaşinqton bəyannaməsindən sonra formalaşan yeni regional reallıqlardan narahatlığın göstəricisidir.

Yeni geosiyasi şəraitdə Qarabağın Azərbaycan ərazisi kimi tam tanınması beynəlxalq miqyasda getdikcə daha açıq şəkildə qəbul edilir. Ermənistan isə bu reallığı qəbul etməməyin yaratdığı təzyiqi müxtəlif bəhanələrlə azaltmağa çalışır. Mirzoyanın "əlavə şərtlər" bəhanəsi də həmin təzyiqin diplomatik ifadəsidir.

Son illərdə Ermənistan XİN-in bəyanatlarında aydın bir xətt görünür - prosesləri dondurmaq, məsuliyyəti Azərbaycanın üzərinə atmaq və vaxt qazanmaq. Halbuki Azərbaycan sülh müqaviləsinin imzalanmasına tam hazırdır və bunu dəfələrlə bəyan edib. Rəsmi Bakı üçün sülh sənədi şərtlər paketi deyil, ədalətin və yeni regional reallığın hüquqi təsdiqidir.

Mirzoyanın son açıqlaması Ermənistan diplomatiyasının hələ də ikili oyundan tam imtina etmədiyini göstərir. İrəvan Qərbə sülhpərvər, daxili auditoriyaya isə "qətiyyətli" görünmək arasında tarazlıq axtarır. Amma bu siyasət nə Ermənistanın, nə də regionun xeyrinə deyil. Sülh yalnız aydın, prinsipial və qarşılıqlı tanınmaya əsaslanan sənəd üzərində mümkündür.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyir ki, bu, Ermənistan XİN rəhbərinin gətirdiyi bəhanədir**: "Önəmli olan liderlərin imzaladığı bəyanatdır.



Sülh prosesi və sülh quruculuğu faktiki olaraq start götürüb. Ermənistanda seçkilərdən sonra konstitusiyaya dəyişiklik edilməlidir ki, paraflanan sülh sazişi imzalansın və nəqliyyat yolları işə düşsün. Azərbaycanın heç bir əlavə şərti yoxdur. Şərt odur ki, konstitusiya dəyişməlidir. Azərbaycana ərazi iddiası edən bənd orada olmamalıdır. Bu, əlavə şərt deyil. Vətən müharibəsindən sonra 5 ildir ki, səsləndirdiyimiz tələbdir. İstənilən dövlət tələb edər ki, qanun səviyyəsində ərazimə iddia etmə. Bunu Paşinyan da qəbul edir və özü də deyib ki, yeni konstitusiya qəbul olunacaq.

Zəngəzur dəhlizi ilə bağlı da Azərbaycanın əlavə şərti yoxdur. Şərtimiz bəllidir: Azərbaycan vətəndaşları dəhlizdən maneəsiz keçid imkanları əldə etməlidirlər. Paşinyan da deyir ki, erməni gömrükçü ilə Azərbaycan vətəndaşı arasında fiziki təmas olmayacaq. Yəni texnologiyalar inkişaf edib, kameralar vasitəsilə icra olunacaq.

Ola bilsin ki, Mirzoyan bu açıqlamanı verməklə qabaqdan gəlmişlik etmək istəyir ki, proses ləngisə, günahkar Azərbaycan kimi göstərilsin. Amma bunlar keçməyəcək, işin içində Amerika da var. Onu aldatmaq olmaz".

**Azad Vətən Partiyasının sədri Akif Nağı** qəzetə açıqlamasında deyib ki, indiki məqamda Ermənistan tərəfi parlament seçkilərinə hazırlaşır və proses gərgin mübarizə şəraitində davam edir. Ölkənin daxilində müəyyən qüvvələr ayağa qalxmağa çalışır: "Eyni zamanda Paşinyanın və onun komandasının vəziyyəti o qədər də güclü deyil. Bəzi siyasi qüvvələr artıq formalaşır, toparlanır və Paşinyanın əleyhinə mövqe götürürlər.

Kilsə də Paşinyanın əleyhinədir və onun rəhbərliyi Paşinyana qarşı ittifaq təşkil edib. Bu isə təhlükəli bir məqamdır. Eyni zamanda xarici təsirlər, xüsusilə Rusiyadan, Ermənistanda Paşinyana qarşı addımlar atılır. Rusiya hələ də Paşinyanın hakimiyyətini qətiyyətlə qəbul etmir. Seçkilərə qədər sülh müqaviləsi imzalansa belə, bu, Paşinyanın rəqibləri tərəfindən əks təbliğat üçün istifadə oluna bilər".

**A.Nağı bildirir ki, seçim öncəsi hər an vəziyyət dəyişə, ictimai rəy təsir altında qala və Paşinyana qarşı mövqe güclənə bilər:** "Lakin fakt budur ki, Paşinyan ermənilər üçün düzgün bir yol seçib və ölkəni xəyali arzulardan, yanlış istiqamətlərdən uzaqlaşdırmaq istəyir.

Paşinyan həmçinin real siyasət yürütmək niyyətindədir və Ermənistanı dövlət səviyyəsində xilas etməyə çalışır. Bu səbəbdən, əhalinin seçki zamanı qərarlarına baxmayaraq, onun komandası müəyyən hallarda sülh müqaviləsindən qaçmağa cəhd edə bilər. Lakin bu, Azərbaycan tərəfinin günahı deyil. Azərbaycan əvvəlcədən öz şərtlərini açıqlamış və Minsk Qrupu çərçivəsində müzakirələr aparmışdır. Son nəticədə razılaşmalar əldə olunub.

Eyni zamanda Ermənistanın Konstitusiyasında dəyişikliklər aparılıb və bu məsələlər Azərbaycan tərəfindən də izlənilib. Bu, Azərbaycanın mövqeyinə tam uyğundur. Azərbaycan tərəfi bir çox məsələlərdə düzgün addımlar atır və müharibə, müharibənin nəticələri, təmir və digər texniki məsələlər üzərində yumşaq yanaşır.

Amma prinsipial məsələlər var ki, Azərbaycan güzəştə getmək istəmir. Azərbaycan tərəfindən ortada əlavə şərt yoxdur, mövcud olan şərtlər isə Ermənistan tərəfindən nəzərə alınmalıdır. Bu məsələlərin seçkilərdən sonra müzakirəsi ehtimalı da mövcuddur. Mənim fikrimcə, Azərbaycan rəhbərliyi bu mövqeyi anlayışla qəbul edir və başa düşür".

❑ Şahanə RƏHİMLİ,
Musavat.com

**"Ölkədə ən çox şikayət daxil olan elektronik əşyalar satan mağazalar "Kontakt Home" və "Baku Electronics"dir. Bu iki şirkətlə bağlı şikayətlərin ardı-arası kəsilmir.**

# "Kontakt Home" və "Baku Elektroniks"ə boykot çağırışı - hüquqşünas rəyi

## Əkrəm Həsənov: "Bu sahədə bazar elə bu iki şirkətin əlindədir, boykot edilsə, camaat kimdən alsın?!"
## Ramil Süleymanov: "Şirkət zəmanət verdiyini bildirir, lakin bu barədə məlumat yazılı şəkildə qeyd olunmur"

"Yeni Müsvat" xəbər verir ki, bu sözləri Azad İstehlakçılar İctimai Birliyinin sədri Eyyub Hüseynov "Todaypress" TV-yə açıqlamasında bildirib. İB sədri qeyd edib ki, illərdir bu sahədə vəziyyət acınacaqlı həddədir: "Ən acınacaqlı vəziyyət "Kontakt Home"dadır. Artıq "Baku Electronics" də ona çatmaq üzrədir. Biz şikayətlərin 80 faizini danışıq yolu ilə həll edirik, amma bu iki şirkətlə mümkün olmur".

E.Hüseynov əlavə edib ki, "Music Gallery"dən əvvəllər şikayətlər yox dərəcəsində idi. Bu şəbəkəni "Kontakt Home" alandan sonra problemlər çoxalıb: "İndi artıq "Music Gallery"dən də şikayətlər yağış kimi gəlir".

Ekspert insanları belə şirkətləri boykot etməyə çağırıb.

Göründüyü kimi, istehlakçı hüquqlarını müdafiə edən QHT rəhbəri konkret adlar çəkir. Sosial şəbəkələrdə də bu firmalardan kütləvi narazılıqları görmək olar.

Bəs vətəndaşlar nədə diqqətli olmalıdırlar?

Azərbaycanda istehlakçıların hüquqlarını qorumaq üçün qanunvericilik mövcuddur, lakin praktiki tətbiqlərdə problemlər qalır. Bu səbəbdən istehlakçılar daha diqqətli olmalı, alış-veriş zamanı bütün sənədləri (qəbz, zəmanət talonu və s.) toplamalı və onları saxlamaq vərdişinə yiyələnməlidirlər. Məhsulun istismar qaydaları, zəmanət müddəti və dəyişdirilmə şərtləri yazılı şəkildə təqdim edilməlidir. Elektronika məhsullarını alarkən onu dərhal yoxlamaq, nasazlıq halında gecikmədən rəsmi şikayət vermək vacibdir.

Ekspertlər daha geniş həll yolu kimi Azərbaycanda alternativ mübahisə həll mexanizmlərinin yaradılması, onlayn şikayət sisteminin sadələşdirilməsi və maarifləndirmə işlərinin gücləndirilməsi tövsiyə olunur. Eyni zamanda tez-tez şikayət edilən şirkətlər üçün qara siyahıların rəsmi şəkildə ictimaiyyətə təqdim olunması və bu cür şirkətlərə qarşı maliyyə sanksiyalarının tətbiqi də problemin qarşısını ala bilər.

İstehlakçılar yalnız şikayət etməklə deyil, həm də hüquqlarını bilməklə və tələbkar olmaqla daha güclü mövqe qazana bilərlər. Bazar iqtisadiyyatının sağlam inkişafı üçün ilk növbədə istehlakçının hüquqları ön planda olmalıdır.

**Vəkil Ramil Süleymanov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Vətəndaşların elektronika məhsulu alarkən diqqət etməli olduqları əsas məqamlardan biri həmin məhsula istehsalçı və ya distribütor şirkət tərəfindən rəsmi zəmanətin təqdim olunub-olunmamasıdır. Əgər zəmanət üçün əlavə ödəniş tələb edilirsə, bu məbləğ ayrıca göstərilməli və mütləq şəkildə istehlakçıya zəmanət talonu təqdim olunmalıdır. Zəmanət talonunda istehlakçı üçün mühüm olan bütün detallara - o cümlədən hansı məhsullara və hansı hallarda "qızıl zəmanət"in şamil olunduğuna dair müddəalar aydın şəkildə göstərilməlidir. Həmçinin talonda məhsulun hansı müddət ərzində və hansı şərtlərlə geri qaytarıla biləcəyi də qeyd olunmalıdır. Əgər bu məlumatlar talonda əksini tapmayıbsa, o zaman Azərbaycan qanunvericiliyinə əsasən, istehlakçı məhsuldan narazı qaldığı halda 14 gün müddətində həmin malı satıcı şirkətə geri qaytara bilər".




**Vəkil qeyd edir ki, bəzən vətəndaşlar şifahi formada aldadılırlar:** "Şirkət zəmanət verdiyini bildirir, lakin bu barədə məlumat yazılı şəkildə qeyd olunmur. Nəticədə, sonradan həmin öhdəlikdən imtina edilir. Buna görə də bütün zəmanət şərtləri mütləq yazılı şəkildə, bənd-bənd göstərilməli, zəmanət talonuna satıcı şirkətin möhürü vurulmalı və səlahiyyətli şəxs tərəfindən imzalanmalıdır.

Əgər bu tələblər yerinə yetirilmirsə, vətəndaşlar öz hüquqlarının bərpası üçün məhkəməyə müraciət edə bilərlər. Bu zaman onlar həm pozulmuş hüquqlarının tanınmasını, həm də vurulmuş maddi zərərin ödənilməsini tələb edə bilərlər. Bundan əlavə, hüquqların müdafiəsi məqsədilə çəkilmiş hüquqi xərclər də qarşı tərəfdən tələb oluna bilər".

**Hüquqşünas Əkrəm Həsənov da mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bildirib:** "Pozuntu varsa, vətəndaş danışıqla həll etməlidir, məsələ həll olunmursa, o, məhkəməyə şikayət edə bilər. Eyni zamanda istehlakçının Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə şikayət vermək hüququ var. Söhbət elə şirkətlərdən gedir ki, demək olar, bu sahədə bazar elə "Kontakt Home" və "Baku Elektroniks"in əlindədir. Biz deyək ki, gəlin bunları boykot edək. Bəs insanlar lazım olan əşyaları kimdən alsınlar? Həm də elektronika malları ən geniş alınan mallardır. Hesab edirəm ki, bu halda vətəndaşlar malı alanda keyfiyyətə fikir versinlər. Onlarla müqavilə bağlanır, zəmanət talonu verilir. Əgər problem varsa, əvvəldə qeyd etdiyim qurumlara şikayət etsinlər. Eyni zamanda məsələni ictimailəşdirsinlər ki, şirkətlər də müştəri itirəcəklərinə görə narahat olsunlar".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Qızılın qiyməti rekord həddə çatır - bizə nə xeyri var...

## Dollar ucuzlaşanda investorları sabit investisiya alətləri daha çox cəlb edir; bahalaşma böyük sosial qruplar üçün arzuolunan hesab olunmur

**Dünya bazarlarında qızıl bahalaşmaqda davam edir. "Comex" birjasında dekabr ayı üçün qızıl fyuçerslərinin qiyməti 1 faiz artaraq bir unsiya üçün 3949 dolları ötüb. Bu, qızılın indiyədək müşahidə edilən ən yüksək qiyməti hesab olunur. Yerli bazarda da bahalaşmanın təsiri hiss olunur, bu isə alıcıların sayında azalma ilə nəticələnib. Mediada mərkəzi univermaqda 21 sahibkarın fəaliyyətini dayandırdığı barədə məlumatlar yayılıb.**



Univermaq rəhbərliyi bu xəbərləri təkzib edib.

Qeyd edək ki, dünya bazarında qızılın qiyməti 4000 dollara yaxınlaşır. Ölkədə isə 999,9 əyar qızılın 1 qramı təxminən 205 manat, 750 əyar qızıl 153 manat, 585 əyar qızıl isə 120 manat civarında satılır.

Azərbaycan qızıl ixrac edən ölkədir. Regionda, demək olar, yeganə ölkəyik ki, bu qiymətli metal növünü hasil və ixrac edirik.

Qızılın bahalaşması zərgərlik məhsullarının qiymətinin də bahalaşması deməkdir. Mağazalarda satılan zinət əşyalarının qiymətləri bu prosesdən təsirlənir. Qiymətlərin artmasının çox səbəbi olsa da, son bahalaşmanın əsas amili Amerika Mərkəzi Bankının sentyabr iclasında faiz dərəcələrini aşağı salacağına dair gözləntilərlə bağlıdır. Dollar ucuzlaşanda qızılın qiyməti də qalxır, çünki qiymətlər dollarla ifadə olunur.

**İqtisadçı Eyyub Kərimli** hesab edir ki, qızılın qiymətinin artmasının Azərbaycan üçün müəyyən müsbət təsirləri var. "Yeni Müsavat" a şərhində o bildirdi ki, Azərbaycan qızıl ixracatçısı olduğu üçün dəyəri artdıqca büdcəyə əlavə daxilolmalar da artır: "Digər tərəfdən, dünyada qızılın qiymətinin artması zərgərlik məmulatlarının qiymətinin artmasına da səbəb olur. O cümlədən büdcə aktivlərinin qiymətləri də qalxır. Məlum olduğu kimi, Azərbaycan Dövlət Neft Fondunun, Azərbaycan Mərkəzi Bankının qızıl ehtiyatları var. Hesab edirəm ki, qızıl qiymətinin artması dolların ucuzlaşması ilə bağlıdır, çünki dollar ucuzlaşanda investorları sabit investisiya alətləri daha çox cəlb edir. Ümumilikdə, qızıla tələbat artıb. Həm insanlar, həm də dövlətlər qızıl alışına daha çox üstünlük verdiyi üçün qiymətin artması normaldır".

**İqtisadçı Rəşad Həsənovun fikrincə, qızıl qiymətinin artması qısamüddətli dövrdə marjinal qruplar və bəzi dövlət qurumları üçün pozitiv nəticələr doğura bilər. "Yeni Müsavat"a açıqlamasında R.Həsənov qeyd etdi ki, qızıla investisiya etmiş şəxslər üçün bu, aktivlərin dəyərinin artmasını və gəlir əldə etməsini şərtləndirir:** "Azərbaycan Mərkəzi Bankı, Azərbaycan Dövlət Neft Fondu kimi qurumlar qızıla irihəcmli investisiyalar edirlər. Onların dəyərləri dollarla ifadədə qısamüddətli dövrdə yüksəlir. Amma eyni zamanda bu bahalaşma böyük sosial qruplar üçün arzuolunan deyil. Zinət əşyalarının qiyməti bahalaşır. İl ərzində 60-70 min ailə qurulur, qızılın qiymətinin artması xərclərin çoxalmasına gətirib çıxarır. Digər mühüm məqam ondan ibarətdir ki, investorlar qızılın qiymətinin artmasını müəyyən amillərlə izah etməyə çalışırlar. Mütəxəssislər ABŞ hökumətinin defoltla üzləşməsi, qlobal geosiyasi gərginliklər, dolların ucuzlaşması istiqamətində ABŞ hökumətinin təzyiqləri, FED-in bu istiqamətdə qərar qəbul etmə ehtimalının artması, mərkəzi bankların kütləvi şəkildə bazarda aktiv iştirakı, növbəti 12 ay üzrə 1 milyon tondan artıq qızılın istehlak ediləcəyi ilə bağlı proqnozlar və s. amillərdən bəhs edirlər. Eyni zamanda mütəxəssislərdə belə bir qənaət var ki, sürətli qiymət artımlarının kökündə qlobal iqtisadiyyatın növbəti dövrlər üzrə inkişafı ilə bağlı narahatlıqlar dayanır. Bu isə resessiyanın başlaması ilə bağlı siqnal kimi başa düşülür. Əgər bu proses resessiyaya aparıb çıxararsa, ciddi nəticələr doğuracaq. Azərbaycan enerji bazarlarında öz məhsullarını daha aşağı qiymətlə satmaq məcburiyyətində qala bilər, dolayısı ilə bu istiqamətdən daxil olan vəsaitlərin həcmi azala bilər. Eyni zamanda vəziyyətin yaratdığı konyukturda ölkə iqtisadiyyatının artım tempi risk altına girir. Məşğulluqla bağlı risklər yaranır, alıcılıq gücü azalır, hətta əməkhaqqının azalması, yaxud artım dinamikasının aşağı düşməsi kimi vəziyyət formalaşır. Bu isə öz növbəsində məcmu tələbi aşağı salmaqla əlavə zəncirvari iqtisadi çətinliklərə yol açır. Yəni bütövlükdə qızılın bahalaşmasından çox, onun ucuzlaşması ölkə iqtisadiyyatı, daha böyük sosial qruplar, maraq qrupları üçün faydalıdır, nəinki bahalaşması".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 182 (8792) 9 oktyabr 2025

# "Komfortlu türmələr" cəzaları mənasız edir? - Çıxış yolu

**Qırğızıstanda ölüm hökmünün bərpası ilə bağlı qanun layihəsi hazırlanıb. Bu təşəbbüs İssıkkul vilayətində 17 yaşlı Aysulu adlı qızın zorlanaraq öldürülməsindən sonra gündəmə gəlib. Ölkə Prezidenti Sadır Japarov edam cəzasının bərpası haqda danışarkən, deyib ki, bu qanun insanlığa sığmayan və bütün cəmiyyəti hiddətləndirən cinayətlərə qarşı adekvat cavab olacaq.**

Japarov onu da deyib ki, Qırğızıstan həbsxanalarında məhbuslar üçün yaradılan şərait artıq cəzanın çəkindirici təsirini itirib: "Əvvəllər məhbuslar ailələrinin göndərdiyi yeməyə, geyimə, pula möhtac idilər. İndi isə azadlıqdan məhrum edilməklə kifayətlənmirlər - həbsxanada belə pullar toplayır, cinayətkar aləmin gücünü saxlayırlar".

Prezidentin bu açıqlaması cəmiyyətdə geniş müzakirələrə səbəb olub. Ölüm hökmünün bərpasını müdafiə edənlərə görə, uşaqlara və qadınlara qarşı törədilən ağır cinayətlərdə başqa cəza ədaləti təmin etmir. Əleyhdarların fikrincə isə ölüm hökmü nə cinayətlərin qarşısını alır, nə də ədaləti bərpa edir. Üstəlik, hüquqi səhvlər nəticəsində günahsız insanların edam olunması riski mövcuddur.

Azərbaycan 1993-cü ildən ölüm hökmünün icrasına moratorium qoyub, 1998-ci ildə isə bu cəza növünü tamamilə ləğv edib. Bunun əvəzinə "ömürlük azadlıqdan məhrumetmə" tətbiq olunur. Beləcə, Azərbaycan Şərqdə ölüm hökmünü rəsmən ləğv edən ilk ölkə kimi tarixə düşüb və beynəlxalq aləmdə insan hüquqlarına hörmət edən dövlət imicini möhkəmləndirib.

Hazırda 58 ölkə ölüm hökmünü qanunvericiliyində saxlayır, 32 ölkə isə tam qadağan edib. Avropada yalnız Belarus bu cəzanı tətbiq edir. ABŞ, Çin və İran kimi ölkələrdə isə ölüm hökmü qüvvədə qalır. Avropa dövlətləri hesab edir ki, ömürlük həbs həm hüquqi, həm də mənəvi baxımdan daha optimal çıxış yoludur.

Son illər Azərbaycanda qadınlara və uşaqlara qarşı törədilən cinayətlər ictimai qəzəb doğurur. Sosial şəbəkələrdə "belələrinə ölüm azdır" kimi çağırışlar səslənir. Lakin hüquqşünaslar bildirirlər ki, emosiyalarla deyil, hüquqi prinsiplərlə hərəkət etmək lazımdır.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, ölüm hökmünün bərpası ilə bağlı müzakirələr zaman-zaman gündəmə gəlib, hətta tanınmış elm xadimləri və hüquq mütəxəssisləri bu məsələyə fərqli yanaşıblar: "Mən hesab edirəm ki, bəzi ağır cinayətlərə görə ölüm hökmü tətbiq edilə bilərdi, lakin Avropa Şurasına daxil olarkən götürdüyümüz öhdəliklər buna imkan vermir".

Ç.Qənizadənin sözlərinə görə, Avropa institutları ilə münasibətlər tədricən normallaşır və Azərbaycanın AŞ-dəki fəaliyyəti bərpa olunarsa, ölüm cəzasının bərpası gündəmdə ola bilməz.



**Hüquqşünas məhbusların şəraitinə də toxunaraq qeyd edib ki, məhbusların normal şəraitdə yaşaması qanunun tələbidir:** "Onlar azadlıqdan məhrum ediliblər, normal yaşamdan yox. Qırğızıstanda cinayətkar dəstələr hələ də aktivdir, amma Azərbaycanda sabitlik var, hüquq-mühafizə orqanları güclüdür. Cəzaçəkmə müəssisələrində pul dövriyyəsi və məhbusların ailə ilə təması qanunla tənzimlənir və bu sahəyə ciddi nəzarət edilir".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, azadlıqdan məhrum edilmək özlüyündə kifayət qədər ağır cəza formasıdır: "Mən hələ ömürlük məhkumlardan danışmıram. Onlar üçün vəziyyət, əlbəttə, daha da çətindir. Amma ümumilikdə məhbusların azadlıqdan məhrum edilməsi, ailədən uzaq qalması çox ağır sınaqdır. Həbsxanada "pul toplamaq" məsələsi var, amma bu nədən qaynaqlanır? Biz dəfələrlə təklif etmişik ki, koloniyalarda dövlət proqramı çərçivəsində iş yerləri yaradılsın. Belə olsa, məhbuslar qazandıqları pulla həm özlərinə, həm də ailələrinə dəstək ola bilərlər".

**Hüquq müdafiəçisi əlavə edib ki, islah olunmuş, cəmiyyət üçün təhlükə törətməyən məhbusların azadlığa buraxılması həm ailələrə dəstək olar, həm də dövlətin xərclərini azaldar:** "Həbsxanaların yükü yüngülləşər və həmin vəsait digər vacib sahələrə yönəldilə bilər".

**Tanınmış hüquqşünas Qulamhüseyn Əlibəylinin sözlərinə görə, ölüm cəzası rəsmən ləğv edilsə də, bəzi istisna hallarda onun bərpası hüquqi cəhətdən nəzəri olaraq mümkün idi:** "Azərbaycan 2001-ci ildə Avropa İnsan Hüquqları Konvensiyasının 6 saylı protokolunu ratifikasiya edib. Amma bu sənəddə bir istisna var - müharibə gedən və ya müharibə təhlükəsi yaranan dövrdə dövlət daxili qanunvericilikdə ölüm cəzasını bərpa edə bilər. Lakin Azərbaycan 44 günlük Vətən müharibəsi zamanı belə bu hüquqdan istifadə etmədi".

**Q.Əlibəylinin sözlərinə görə, Prezident İlham Əliyev 2023-cü ildə konvensiyanın 13 saylı protokolunu imzalayıb və bu sənəd ölüm hökmünün istisnasız şəkildə ləğvini nəzərdə tutur:** "Bu, Azərbaycanın qəbul etdiyi siyasi və hüquqi kursun davamıdır. Yəni cinayətin ağırlığından asılı olmayaraq, ölüm cəzasının ölkəmizdə bərpası real görünmür".

❑ **Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

# Millimiz 30 il sonra Parisdə: "Oser faciəsi" təkrarlana bilərmi?

## Nəticəsi böyük ölçüdə əvvəlcədən məlum olan bir oyuna çıxırıq

**Azərbaycan yığması oktyabrın 10-da dünya çempionatı 2026-nın seçmə mərhələsində Parisdə Fransa millisi ilə qarşılaşacaq. Oyun Bakı vaxtı ilə saat 22:45-də "Park de Prens" stadionunda keçiriləcək.**



Qeyd edək ki, oyunöncəsi "Real" və Fransa millisinin hücumçusu Kilian Mbappe "Vilyarreal"la (3:1) oyunda sağ topuq bağlarının dartılması səbəbindən bərpa kursu keçir və Azərbaycanla oyunda iştirak edə bilməsə, bu, millimiz üçün üstünlüklərdən biri olacaq.

Azərbaycan millisi tarixinin ən ağır məğlubiyyətini məhz Fransadan alıb. Fransa-Azərbaycan futbol qarşılaşması və ya Azərbaycan KİV-də "Oser faciəsi" kimi tanınan görüş 6 sentyabr 1995-ci ildə olub. Avropa çempionatının seçmə mərhələsinin 1-ci qrupu çərçivəsində baş tutmuş və Fransanın 10:0-lıq qələbəsi ilə nəticələnən qarşılaşma yaddaşlardan silinməyib. Ona görə də futbol mütəxəssisləri hesab edirlər ki, millimizin üzərində həm də bu nəticədən dolayı bir basqı ola bilər. Amma Ukrayna ilə son olaraq, Bakıdakı qarşılaşmanı (1-1 hesabı ilə başa çatmışdı) düşünüb, rusvayçı məğlubiyyətin olmayacağına ümid edənlər də az deyil.

Hazırda millinin yeni baş məşqçisi Ayxan Abbasovdur. Onun ilk rəsmi sınağı Fransa ilə olacaq. Təbii ki, səfərdən müsbət nəticə gözlənilmir, amma "Oser faciəsi" təkrarlana bilərmi?

**Tanınmış idman yazarı Natiq Muxtarlı** "Yeni Müsavat"a açıqlamasında məğlubiyyəti istisna etmədiyini söylədi, amma meydanda ləyaqətli mübarizə aparmağın heç də mümkünsüz olmadığını da diqqətə çatdırdı: "Azərbaycanı Fransa ilə ağır oyunun gözlədiyi bəllidir. Komandalar arasında səviyyə fərqi kəskindir. Amma buna rəğmən "Oser faciəsi"nin təkrarlanacağını gözləmirəm. Hazırda Azərbaycan yığmasının düşərgəsində pozitiv ab-hava olmalıdır. Ukrayna ilə oyun göstərdi ki, Santuşun gedişindən sonra Ayxan Abbasov komandanı toparlaya bilib. Fransa ilə qarşılaşmada azərbaycanlı futbolçular sərt, aqressiv oyuna üstünlük verməlidir. Rəqibdən çəkinməyə ehtiyac yoxdur. "Qorxan gözə çöp düşər" deyimini əsas götürsək, Fransa ilə oyunda qorxaq futbol növbəti faciəni yaşada bilər. Güman ki, bunu məşqçilər korpusu, futbolçular da anlayırlar. Azərbaycan yığmasının itirəcək nəyisə yoxdur. Ona görə də fransızlara meydanda istədikləri kimi davranmaq şansı verilməməlidir. Belə olsa, onlar məşq edirlərmiş kimi, xeyli qol vuracaqlar. Amma Fransa yığmasına qarşı aqressiv futbol sərgilənsə, istər-istəməz çəkinəcəklər. Ulduz futbolçular yığmanın düşərgəsində zədələnməyi arzulamazlar. Bizim futbolçuların aqressivliyi fonunda onlar maksimum ehtiyatlı davranacaq, qarşılaşmanı "itki" vermədən qazanmağa çalışacaqlar.

Fransızlara qarşı meydanın hər nöqtəsində pressinq tətbiq olunmalıdır. Onlar topu rahat qəbul etməməlidirlər. Tamamilə müdafiəyə çəkilsək, bu, rəqib üçün göydəndüşmə şans olar. Amma belə oyun üçün də fiziki cəhətdən hazırlıqlı olmaq gərəkir. Azərbaycan yığmasındakı futbolçuların fiziki durumu necədir, belə mübarizəyə tab gətirə bilərlərmi? Yəqin ki, məşqçilər korpusunda bununla bağlı müfəssəl məlumatlar var və buna uyğun da taktiki sistem quracaqlar. Azərbaycan yığmasının Fransaya qalib gəlməsi möcüzə olardı. Və əslində yığmadan kimsə bunu gözləmir də. Sadəcə, azarkeşlər mübarizə gözləyir, meydana çıxıb ləyaqətlə mübarizə aparmaq lazımdır. Onda azarkeşlər məğlub olan komandanı da alqışlayar".

**Futbol mütəxəssisi Kənan Məstəliyev məğlubiyyəti qaçılmaz hesab etsə də, oyunçuların sona qədər əzmkarlıqla mübarizə aparacaqlarını düşünür:** "İnanmaq istəyirəm ki, o faciə təkrarlanmayacaq. Düzdür, Fransa çox güclü komandadır və nəinki seçmə mərhələnin, ümumiyyətlə, bütün turnirin əsas favoritlərindən biridir. Bizim üçün bu qarşılaşma olduqca çətin olacaq. "Park de Prens" nəinki Avropa, ümumilikdə dünyanın istənilən komandası üçün ağır sınaq yeri sayılır. Messili Argentina, Ronaldolu Portuqaliya, həmçinin Almaniya, İtaliya və digərləri belə bu arenada qələbə və ya xal qazanmağı özü üçün uğurlu nəticə saya bilər. Bu səbəbdən Fransanın böyük hesabla qalib gəlmək ehtimalı yüksəkdir və bu, normal qarşılanmalıdır. Hətta 1995-ci ildə "Oser faciəsi" kimi yadda qalan 0:10 hesablı nəticə belə təkrarlansa, bu, sensasiya sayılmamalıdır. Amma mən bu məğlubiyyətə inanmıram. Daha az hesabla məğlub olacağıq. Bizim üçün matçda əsas olan nəticə yox, mübarizə aparmaq, formanın haqqını verməkdir. Məncə, belə də olacaq. Çünki uzun illər sonra millini yerli mütəxəssis çalışdırır. Ayxan Abbasov yaxşı məşqçidir, özünü sübut edib, indi də əsas millidə buna nail olmaq istəyir. İnanıram ki, o bunu bacaracaq. AFFA-nın ona etimad göstərməsi alqışlanmalıdır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 182 (8792) 9 oktyabr 2025

# Yanan tütün, qızdırılan tütün - "dadı" da eyni deyil, zərərləri də

**Astanada beynəlxalq tədbirə qatılan əməkdaşımız "Philip Morris International" şirkətinin Cənub və Cənub-Şərqi Asiya, MDB, Yaxın Şərq və Afrika üzrə elmi fəaliyyət direktoru İida Tomokodan müsahibə alıb. Müsahibəni təqdim edirik:**

**- PMI-nin insan orqanizminə zərəri azaltmaq üçün müxtəlif yolları araşdırdığı məlumdur. Tüstüsüz tütün məhsulları bu zərərin azaldılmasına nə dərəcədə töhfə verib?**

- Bəli, PMI tüstüsüz tütün məhsullarının zərərinin azaldılmasına mühüm töhfə vermişdir. İsveç və Yaponiya kimi ölkələrin təcrübəsi göstərir ki, siqaret çəkən böyüklər ənənəvi siqaretdən imtina edib yandırılmayan, daha az zərərli alternativlərə keçdikdə, uzunmüddətli dövrdə əhalinin sağlamlıq göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşır.

Məsələn, İsveçdə snus kimi tüstüsüz məhsulların geniş istifadəsi nəticəsində ağciyər xərçəngi də daxil olmaqla siqaretlə bağlı xəstəliklərin nəzərəçarpacaq dərəcədə azalması müşahidə olunub. Eyni qaydada, Yaponiyada qızdırılan tütün məhsullarının tətbiqi siqaret satışlarının və siqaret çəkənlərin sayının kəskin şəkildə azalmasına gətirib çıxarıb.

Əlbəttə, siqaret çəkənlər üçün ən yaxşı seçim siqareti tamamilə tərgitməkdir. Lakin başa düşürük ki, bir çox insan siqareti çəkməyə davam edəcək. Belə olan halda, onlara daha az zərərli alternativlərə çıxış imkanı vermək risklərin azalmasında mühüm rol oynaya bilər. Siqaretdən tamamilə imtina etmək istəməyənlərin bu alternativlərə keçməsi sayəsində qısa müddətdə (3-6 ay) əhalinin sağlamlığı baxımından öskürəyin azalması və tənəffüsün yaxşılaşması kimi real faydalar görünür, əhali səviyyəsində isə 30-40 il ərzində siqaret çəkməklə bağlı xəstəliklərin azaldığını görəcəyik.

Ümid edirik ki, belə nəticələr Azərbaycanda da əldə oluna bilər, bunun üçün yetkin siqaret çəkənlərin tüstüsüz alternativlərə çıxış imkanlarını təmin etmək lazımdır.

**- Bu məhsullar niyə ənənəvi siqaretlərdən daha az zərərli hesab olunur?**

- Çox yaxşı sualdır. Məsələn, siqareti yalnız yandırıb çəkdiyiniz zaman 6000-dən çox kimyəvi maddə əmələ gəlir və onların təxminən yüzə yaxını xüsusilə təhlükəli və zərərli maddələrdir. Hamısı eyni dərəcədə zərərli olmasa da, məhz həmin yüzə yaxın maddə insan sağlamlığı üçün ən böyük risk yaradır. Buna görə biz daha az zərərli alternativ məhsullar hazırlayıb istifadəyə veririk ki, siqareti tərgitməyən və çəkməyə davam edən insanlar ən azı bu alternativlərdən birini seçərək sağlamlıqlarına dəyən zərəri azaltsınlar.




Bundan başqa, artıq biz çoxsaylı kliniki tədqiqatlar aparmağa ehtiyac duymuruq, çünki məhsullar bir çox bazarlarda, o cümlədən sizin ölkənizdə də əlçatandır. Bu gün biz real dünya məlumatları (real-world data) toplayırıq: məhsullarımıza keçid edən insanları uzunmüddətli izləyirik və əhalinin sağlamlıq göstəricilərində hansı dəyişikliklərin baş verdiyini öyrənirik.

Məhz buna yolla bilirik ki, İsveç kimi ölkələrdə siqaretlə bağlı xəstəliklərin səviyyəsi azalır və Yaponiya da tezliklə ona qoşulacaq. Məhsullarımız artıq 97 ölkədə satılır və biz həmin ölkələrdə məhsullarımıza keçən insanların sağlamlıq göstəricilərini izləyərək, əhalinin sağlamlığına real təsiri müşahidə edə bilirik.

**- Şirkətiniz tütün istehlakının insanlara vurduğu zərəri minimuma endirmək üçün hansı tədqiqatları aparır? Yaxın gələcəkdə yeni həllər gözləyə bilərikmi?**

- Ümumiyyətlə, zərərin azaldılmasının iki əsas elementi var. Onilliklərlə aparılan tədqiqatlardan öyrəndiyimiz budur ki, əlbəttə, zərərli kimyəvi maddələrin təsirini azaltmaq vacibdir, lakin biz həm də zərərin azaldılmasının ikinci vacib elementini öyrəndik: siqaret çəkənin həmin məhsulu qəbul etməsi azı kimyəvi zərərin azaldılması qədər önəmlidir.



Məsələn, əgər biz tamamilə risksiz məhsullar hazırlaya bilsək belə, əgər siqaret çəkənlər dad fərqi, istifadə vərdişi və ya digər səbəblərə görə həmin məhsullara keçmək istəməsələr, bu halda əhalinin sağlamlığı baxımından heç bir müsbət təsir olmayacaq.

Araşdırmalardan öyrəndiyimiz odur ki, biz bir tərəfdən mümkün qədər çox zərərli kimyəvi maddələri azaltmalı, digər tərəfdən isə istehlakçıların qəbul edib keçmək istədiyi məhsullar təqdim etməliyik. Bu, diqqətimizi üzərində cəmləşdirdiyimiz iki əsas elementdir.

Məqsədimiz, əlbəttə ki, ilk növbədə sağlamlığa dəyən zərəri azaltmaqdır. Amma ikinci əsas məqsəd odur ki, istehlakçı məhsulu dadına, istifadəsinə və ya digər xüsusiyyətlərinə görə rədd etməsin, əksinə, onu qəbul etsin və keçid etməyə hazır olsun.

**- Bəzi insanlar deyirlər ki, bu yeni məhsulların dadı əvvəlki siqaretlərdən fərqlidir, "öncədən olduğu kimi ləzzətli deyil", "qızdırılanda tam eyni effekti vermir". Onlar soruşurlar: insanlar əvvəlki siqaret təcrübəsini itirməsinlər deyə, siz dad və istifadə baxımından nə edirsiniz? Dadın fərqli olmamasına necə əmin olursunuz və bunun üçün hansı tədbirlər görülür?**

- Bu, çox açıq bir sualdır. Əvvəlcə qeyd etmək lazımdır ki, siqaret yanma nəticəsində istifadə olunur, qızdırılan məhsullar isə qızdırma yolu ilə işləyir. Buna görə də dadın tam eyni olması mümkün deyil. Bu, tavada kotleti qızartmaqla, eyni kotleti suda bişirmək arasındakı fərq kimidir - hər ikisi ət olsa da, dadları fərqli olur.

Biz də anlayırıq ki, qızdırılan tütün məhsulları ilə siqaret arasında dad fərqi qaçılmazdır. Amma eyni zamanda istehlakçılar üçün bu fərqi minimuma endirmək üçün çalışırıq. Məhsullarımızı elə hazırlayırıq ki, onların istifadəsi daha rahat və daha məqbul olsun.

Təcrübə göstərir ki, istifadəçi məhsula bir-iki həftə davamlı şəkildə uyğunlaşdıqdan sonra bu fərq artıq o qədər də hiss olunmur. Məhz buna görə də statistik göstəricilərimizə əsasən, siqareti tərgidib qızdırılan məhsullara (məsələn, IQOS-a) keçən insanların təxminən 75%-i həmin məhsuldan istifadə etməyə davam edir və geri siqaretə qayıtmır.

Başqa sözlə, istifadəçilərin təqribən 75%-i siqareti tamamilə atır və yalnız alternativ məhsullardan istifadə edir. Bu da əhalinin sağlamlığı baxımından çox əhəmiyyətli nəticədir.

**- "Philip Morris"in Tədqiqat və İnkişaf mərkəzlərində tüstüsüz məhsulların sağlamlığa təsiri ilə bağlı hansı mühüm nəticələr əldə olunub?**

- Mən bu sualın cavabında elm, şəffaflıq və qəbul edilmənin önəminə toxunacam.

Əslində bizim komandamızın işi də məhz bundan ibarətdir. Birincisi, bütün məlumatlarımızı və qiymətləndirmələrimizi açıq mənbələrdə dərc edirik, tədqiqat nəticələrimizi tam şəffaf şəkildə bölüşürük ki, hər kəs onlara çıxış əldə edə bilsin.

İkincisi, biz tibbi və elmi ictimaiyyətlə ünsiyyət qururuq və onlardan nəticələrimizi müzakirə etmələrini xahiş edirik. İstəyirik ki, bizim elmi işlərimizə baxsınlar, öz təhlillərini aparsınlar, nəticələrimizin düzgünlüyünü təsdiqləsinlər ki, ümumi bir anlayış və razılaşma yaransın.

Üçüncüsü və ən vacibi isə maraq artdıqca dövlətin özü müstəqil təhlillər aparır. Bu, ən yaxşı yanaşmadır. Çünki səhiyyə nazirliyi kimi qurumlar mövcud məlumatları incələyərək, obyektiv rəy verə bilər.

Amma burada başqa bir mühüm tərəf də var: bu məhsullar istehlakçı tərəfindən qəbul ediləcəkmi? Əgər insanlar qəbul etməsələr, onda onların sağlamlığa faydası sıfıra bərabər olacaq. Ona görə də məsələ təkcə texnologiyanın hazırlanması və ya məhsulun kimyəvi cəhətdən daha az zərərli olması deyil. Əsas məsələ həm də siqaret çəkənlərin həmin alternativi qəbul etməsidir.

Biz çalışırıq ki, məhsullarımız həm daha az zərərli olsun, həm də insanlar tərəfindən istifadə üçün uyğunlaşsın. Yalnız bu halda tüstüsüz məhsullar siqaretin yerini tutaraq insanların sağlamlığı üçün real fayda verə bilər.

**- Son elmi nailiyyətlərin tətbiqi ilə tamamilə zərərsiz tütün məhsulu əldə etmək mümkündürmü və bu istiqamətdə işlərin hazırkı vəziyyəti necədir?**

- Hazırda üzərində işlədiyimiz məhsullardan biri nikotin kisəcikləridir (nicotine pouch). Bu məhsullar mövcud siqaretsiz alternativlər arasında belə ən az zərərli hesab olunur.

Nikotin kisəciklərinin kimyəvi tərkibinə baxdıqda görürük ki, onlar siqareti tərgitmək üçün istifadə olunan nikotin əvəzləyici terapiyaya (nikotin saqqızı, plastır və s.) olduqca bənzəyir. Yəni burada tütün yoxdur, sadəcə, nikotin xüsusi formada ağız boşluğu vasitəsilə qəbul olunur.

Buna görə də ümid edirik ki, siqaretdən imtina etməyən, amma nikotindən istifadəni davam etdirən insanlar üçün nikotin kisəcikləri daha az zərərli alternativ ola bilər və onlar siqaretdən bu məhsullara keçid edərlər.

❑ **"Yeni Musavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 182 (8792) 9 oktyabr 2025

Oktyabr

# Bunları bilirsinizmi?

* Sizə istidirsə, dirsəklərinizi soyuq suya salın.
* Ayaqlarınız yorulmuşsa, sərin su ilə yuyun, sonra dabanlarınıza krem çəkin və dabandan dizə qədər masaj edin.
* Su çox içməyin - daha çox tərləyəcəksiniz, isti çay, ya da meyvə şirəsi susuzluğunuzu daha yaxşı yatırar.
* Dəri qış ərzində bir qədər solur və təravətini itirir, bunun qarşısını almaq üçün çiməndə dərini bərk sürtmək və təzadlı gah soyuq, gah da isti duş qəbul etmək lazımdır. Bu qan dövranını yaxşılaşdırır və solğunluğu aradan qaldırır.
* Xörək hazırlayarkən çatlamış əllərinizə işarası xiyar, pomidor, kartof püresi çəkməyi, kartof bişirilmiş suda əllərinizi yaxalamağı unutmayın.
* Əlləriniz çox kobudlaşmış, dırnaqlarınız sınmışsa, qızdırılmış günəbaxan yağında 10-15 dəqiqə saxlayın. Sonra əllərinizi yumayın, ancaq əski ilə silin.
* Əllər ağarsın deyə, onları boraks, ya da sirkə tökülmüş ılıq suda saxlamaq lazımdır. Qədim xalq təbabətinə görə çiy süd və ya limon şirəsi qatılmış su ilə vanna etmək yaxşı kömək edir.
* Daha bir məsləhət: sıxılmış limonu atmamışdan əvvəl onu əllərinizə çəkin. Turşuya qoyulmuş xiyarın suyunda əllərinizi vanna edin.
* Əgər işinizlə əlaqədar olaraq əllərinizdən ağ neft, naftalin, balıq yağı və s. iyi gəlirsə, onda əllərinizi adicə sabunla yumaqdan başqa onları quru xardal tökülmüş su ilə silin, sonra da adi su ilə yuyun.
* Yodoformun qoxusunu sirkə ilə yox etmək olar.
* Yağlı boyanı əllərdən əgr hansı həllediçi (aseton) ilə silirlər. Bu olmasa, onda paltaryuyan tozdan istifadə edin və sonra mütləq sirkə, ya da limon turşusu tökülmüş su ilə yaxalayıb yenə də adi su ilə yuyun.
* Əllərə düşmüş mürəkkəb ləkəsini naşatır spirti, odekolon, ya da spirtlə silin.
* Təzə əmələ gəlmiş döyənəyə 8 gün ərzində sirkədə isladılmış yumşaq çörək qoyub kompres etsəniz keçər. Kompresi bütün keçə saxlamaq lazımdır.
* Ətə batmış dırnağı kəsmək üçün onun xariçə çıxmasına şərait yaratmaq lazımdır. Bunun üçün dırnağın altına rivanolda, 5-10%-li sintomisin emulsiyasında isladılmış tənzif parçası, ya da pambıqdan eşilmiş piltə qoymaq olar.
* Tez-tez quruyan və qabıq verən dodaqlara 1%-li bor turşusu məhlulu çəkir və bitki yağı sürtürlər.



## Ac qarına çay içməyin fəsadları - rusiyalı həkimdən xəbərdarlıq

**Ac qarına çay içmək vərdişi sağlamlıq problemlərinə səbəb ola bilər. Oxu.Az xəbər verir ki, bu barədə gazeta.ru-ya rusiyalı qastroenteroloq Natalya Vasilyeva danışıb. Qara və yaşıl çayın tərkibində yüksək miqdarda kofein və tanin (aşılayıcı maddələr) var. Onların kombinasiyası, əlbəttə ki, gümrahlığı və iş qabiliyyətini artırır, lakin eyni zamanda, mədə şirəsinin ifrazını da yüksəldir. Ac qarına çay içmək mədə ağrısı, mədədə yanğı hissi, ürəkbulanma və ya qastrit və xora xəstəliyinin kəskinləşməsinə səbəb ola bilər. "Həkimlər qara və yaşıl çay növlərini yeməkdən sonra və ya ayrıca qəlyanaltı kimi meyvə, qurudulmuş meyvə və ya digər yüngül qidalarla içməyi tövsiyə edirlər", - mütəxəssis qeyd edib.**

Vasilyeva həmçinin əlavə edib ki, çay yüngül sidikqovucu təsirə malikdir. "Bitki və meyvə çaylarına gəldikdə isə onları ac qarına içmək olar. Lakin onları zəif konsentrasiyalarda dəmləmək tövsiyə olunur", - deyə həkim məsləhət görüb.

# Pomidoru xiyarla birlikdə yeməyin - mütəxəssislərdən vacib xəbərdarlıq



**Pomidor və xiyar yay aylarında süfrələrin ayrılmaz "soyuducu tandemi" sayılsa da, mütəxəssislərə görə, bu vərdiş o qədər də xeyirli deyil. Qidalanma üzrə mütəxəssislər xəbərdarlıq edir ki, pomidorla xiyarın eyni vaxtda yeyilməsi orqanizmdə vitaminlərin mənimsənilməsini azalda və mədə narahatlıqlarına səbəb ola bilər.**

Milli.Az xəbər verir ki, mütəxəssislərin sözlərinə görə, pomidorda olan C vitamini, xiyarda mövcud askorbin turşusu oksidaz fermenti ilə birləşdikdə təsirini itirir. Bu səbəbdən, hər iki tərəvəzin fərqli vaxtlarda qəbul edilməsi daha sağlam sayılır.

Qidalanma mütəxəssisləri bildirirlər ki, pomidor və xiyar həzm sistemində fərqli sürətlə parçalanır. Pomidorun turş tərkibi mədə turşusunu artırır, xiyar isə yüksək su miqdarı səbəbilə həzmi yavaşıdır. Bu, xüsusilə həssas mədəyə malik şəxslərdə şişkinlik, qaz və həzm pozğunluğu yarada bilər.

Aparılan araşdırmalar da göstərir ki, xiyarın tərkibindəki askorbin turşusu oksidaz fermenti, pomidorun əsas faydalı komponentlərindən biri olan C vitamininin sorulmasını əngəlləyir. Nəticədə, pomidorun orqanizm üçün ən dəyərli faydalarından biri azalır.

Mütəxəssislər tövsiyə edir ki, bu iki tərəvəz tamamilə ayrılmasın, lakin eyni yeməkdə deyil, fərqli vaxtlarda qəbul olunsun. Məsələn, pomidoru səhər yeməyində, xiyarı isə nahar və ya axşam yeməyində yemək hər iki tərəvəzin faydasını maksimuma çatdırır.

# ABŞ-də məşhur şirkət pensiyaçı qadının ölümünə görə 966 milyon dollar təzminat ödəməli olacaq



**ABŞ-də məhkəmə "Johnson&Johnson" (J&J) korporasiyasının üzərinə talkəsaslı uşaq pudrasının istifadəsindən sonra ölən pensiyaçı qadının ailəsinə 966 milyon dollar məbləğində təzminat ödəmək öhdəliyi qoyub. Kaliforniyadan olan qadının 88 yaşı vardı. Bu barədə "The New York Times" qəzeti məlumat yayıb. "Məhkəmə "Johnson&Johnson"u (J&J) 2021-ci ildə nadir xərçəng növündən ölən qadının ailəsinə 966 milyon dollar ödəmək öhdəliyi qoyub. Mey Murun qohumları iddia edirlər ki, onda mezotelioma "J&J"nin tərkibində asbest olan talkəsaslı uşaq pudrasını istifadə etdikdən sonra inkişaf edib", - məqalədə bildirilir.**

Dəqiqləşdirilir ki, korporasiya dəymiş ziyan müqabilində 16 milyon dollar təzminat və 950 milyon dollar cərimə ödəməlidir. Bununla belə, "Johnson&Johnson"un vitse-prezidenti Erik Haas məhkəmənin qərarı ilə razılaşmadığını bildirərək, apellyasiya məhkəməsinə şikayət etmək niyyətində olduğunu deyib. Şirkətin nümayəndələri uşaq pudrasının tərkibində asbest olduğunu inkar edirlər. Buna baxmayaraq, "Johnson&Johnson" talkəsaslı məhsulun satışını dayandırıb, çünki Mey Murun işi ilk belə hadisə deyil.



## Dünyada ilk: süni intellektin yazdığı opera tamaşası nümayiş olunacaq

**Fransanın Versal Sarayının Kral Operası 2026-cı ildə süni intellekt tərəfindən fransız dramaturqu Molyerin (1622-1673) üslubunda yazılmış tamaşanı səhnələşdirəcək. Tamaşa hazırda işlənmə mərhələsindədir və premyerası 2026-cı ilin may ayında keçiriləcək. Tamaşa "Astroloq və ya yalançı proqnozlar" adlanır. Operanı "Mistral" startapının süni intellekt modeli yaradıb. Tamaşada yeddi aktyor və üç musiqiçi iştirak edəcək.**

# Canlı yayımda uşaq dünyaya gətirdi



**Amerikalı Fendi körpəsinin doğulma anını "Twitch" platformasında birbaşa yayımlayıb. Bu addım adi yayım formatlarının hüdudlarını aşaraq böyük rezonansa səbəb olub. Hadisə barədə Where is The Buzz (WITB) nəşri məlumat yayıb. Canlı yayım zamanı həm gərgin, həm də emosional və bəzən gülməli anlar müşahidə olunub. Doğuş prosesi irəlilədikcə, Fandy həm ağrıdan inildəyib, həm də izləyiciləri ilə zarafat edib və onları bu unikal anın bir hissəsinə çevirib.**

Yayımın ən diqqətçəkən məqamlarından biri "Twitch"in baş direktorunun çata daxil olaraq Fendiyə uğurlar arzulaması olub. Bu hadisə platformanın tarixində ilk dəfə belə bir "rəsmi" dəstəyin doğuş yayımına verilməsi kimi qeydə alınıb.

Sosial şəbəkələrdə istifadəçilərin reaksiyaları birmənalı olmayıb. Bəziləri Fendini real həyatı çəkinmədən göstərdiyinə görə alqışlayıb, digərləri isə etik sərhədlərin pozulub-pozulmadığını müzakirə edib.

## Smartfonların qutuları boşalır: daha bir aksesuar komplektdən çıxarılır

**Smartfon istehsalçıları cihazları artıq bütün komplekt aksesuarlardan məhrum etməyə hazırlaşırlar. Bildirilir ki, bu tendensiya 2020-ci ildə "Apple"ın "iPhone" modellərinin qutusundan şarj adapterini çıxarması ilə başlayıb. Daha sonra demək olar ki, bütün böyük istehsalçılar eyni addımı atıblar. Mütəxəssislərin proqnozlarına görə, yaxın gələcəkdə smartfonların komplektindən şarj kabeli də çıxarıla bilər. Bu addımı ilk reallaşdıran şirkətlərdən biri Yaponiya nəhəngi "Sony" olub. Şirkətin yeni "Xperia 10 VII" modelinin qutusunda yalnız smartfonun özü və sənədlər yer alır. Ekspertlərin fikrincə, "Sony"nin bu qərarı açıq şəkildə istehsal xərclərinə qənaət məqsədi daşıyır.**

# "İnstagram" blogerlərə mükafat təqdim edəcək

**İnstagram yeni üfüqləri kəşf edən yaradıcı insanları həvəsləndirmək üçün yeni "Rings" mükafatının təqdimatını elan edib. Bu barədə "Hollywood Reporter" məlumat yayıb.**

Ənənəvi müsabiqələrdən fərqli olaraq, "Rings" mükafatı konkret məzmun növü və ya izləyicilərin sayı ilə bağlı deyil. Qalibləri seçmək üçün platforma incəsənət, dəb və mədəniyyət dünyasının tanınmış simalarından ibarət beynəlxalq münsiflər heyəti toplayıb. Mükafat dünyanın hər yerindən 25 kontent yaradıcısına təqdim olunacaq. İlk mükafat sahibləri 10 oktyabr 2025-ci ildə elan ediləcək. İnstagram nümayəndələrinin sözlərinə görə, mükafatların təqdimatı hər il ənənəvi olacaq.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABÌROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emìl SALAMOĞLU

Lìsenzìya N: B 114
SAYI: 1.500

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Son dakìka" MMC-nin mətbəəsìndə çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksìyanın mövqeyì uyğun gəlməyə bìlər.